

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 25 (715) ■ 2 iyul 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Ali Baş Komandan İlham Əliyev: «Azərbaycan ordusu dünyada ən güclü ordular sırasındadır»

*İyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimləri keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev birgə əməliyyat-taktiki təlimləri izləmişdir. Dövlətimizin başçısına birgə əməliyyat-taktiki təlimdə nümayiş etdiriləcək təlim yerlərinin ümumi sxemi barədə məlumat verilmişdir.*

## Silahlı Qüvvələrin yaradılması münasibətilə irimiqyaslı təlim keçirilmişdir



Ali Baş Komandan İlham Əliyevə bildirilmişdir ki, son illərdə Azərbaycan Silahlı Qüvvələri əsaslı inkişaf yolu keçmiş, ordumuzun maddi-texniki bazası hərtərəfli müasirləşdirilmiş, döyüş qabiliyyəti artmışdır. Respublikamızda dünyanın ən nizami ordularından biri formalaşdırılmışdır. Maddi-texniki bazası durmadan təkmilləşdirilən ordumuzun peşəkarlığı da artır: «Ordumuzun təchizatında böyük uğurlara nail olunmuşdur. Azərbaycan hərbi məqsədlər üçün böyük məbləğdə vəsait xərcləyir. Ölkəmizin dövlət büdcəsində ən böyük xərclər orduya sərf edilir. Son illərdə Azərbaycanın Silahlı Qüvvələri ən müasir silahlarla təchiz olunmuşdur. Bu zirehli maşınlar, ən müasir tanklar, artilleriya qurğuları və digər texnikalar düşmənin istənilən hədəfini məhv etməyə qadirdir».

Sonra Azərbaycan Silahlı Qüvvələrinin texnika, silah və sursatlarına baxış keçirilmiş, yeni silah sistemlərinin nümunəvi atışlarına başlanılmışdır. Dövlətimizin başçısı əvvəlcə Hərbi Hava Qüvvələrimizin yeni silahlarından olan «Buk-MB» zenit-raket kompleksinin atış prosesini izləmiş, artilleriya sistemlərinin və 306 millimetrlik «Exstra» yüksək dəqiqlikli raket və»Spike» tank əleyhinə idarəolunan raket komplekslərinin atışına baxmışdır. Ali Baş Komandan «BMP-3» piyadaların döyüş maşını və «T-90» tanklarından təşkil edilmiş iki zirehli qrupun nümunəvi atışı, təlim nöqtəsində mina sahəsindən partlayış üsulu ilə keçidin açılması proseslərini də izləmişdir.

Yeni silah sistemlərinin nümunəvi atışları başa çatdıqdan sonra birgə əməliyyat-taktiki təlimin fəal mərhələsi başlanmışdır. Azərbaycan Prezidenti sərhəd zastavasının silahlı basqını dəf etməsi, çevik hərəkət bölüyünün sərhədi gücləndirməsi, Silahlı Qüvvələrin birləşmə və hissələrinin sərhədi ötmə məqsədilə müdafiəyə keçməsini və Daxili Qoşunların desant əleyhinə ehtiyata təyin edilmiş bölməsinin düşmənin taktiki hava desantını təcrid edərək onun məhv etməsi proseslərini də izləmişdir. Ümumilikdə, təlimlərə 4 min nəfərədək şəxsi heyət, 80 tank, 100-dək zirehli döyüş maşını, 80-ə qədər artilleriya sistemi, 10 döyüş təyyarəsi, 20-dək döyüş və nəqliyyat-döyüş helikopteri cəlb edilmişdir.

Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbçilər qarşısında çıxış etmişdir. Təlimlərdə iştirak etmiş bütün şəxsi heyətə göstərdikləri peşəkarlığa görə minnətdarlığımı bildirən dövlətimizin başçısı Azərbaycanda güclü ordu olduğunu bildirmiş, ordunun potensialının gündən-günə möhkəmləndiyini diqqətə çatdırmışdır: «Ordu quruculuğu bizim dövlət siyasətimizdir, prioritetdir və son illərdə bu istiqamətdə çox böyük işlər görülmüşdür. Ordumuz yeni texnika ilə təchiz edilir. Bu gün bu texnikanın bir hissəsi burada nümayiş etdirilmiş və sonra təlimlərdə iştirak etmişdir. Bu gün Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Bu göstəriciyə görə bizim ordumuz dünyada ən güclü ordular sırasındadır. Hərbi xərclərin artırılması və büdcə xərclərində birinci yeri tutması bizim dövlət siyasətimizin təzahürüdür. Bu, bizim prioritetimizdir və bundan sonra da hərbi xərcləri artıracağıq. Son 10 il ərzində hərbi xərclərimiz 20 dəfədən çox artmışdır və bizdə orduya, Silahlı Qüvvələrə ayrılmış xərclər Ermənistanın bütün dövlət büdcəsindən təxminən 2 dəfə çoxdur. Ən müasir silah-sursat alınır və bu gün bu silahların, texnikanın bir hissəsi burada nümayiş etdirilmişdir».

Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrdə müasir döyüş taktikasının tətbiq edildiyini, dünyada ən qabaqcıl təcrübənin öyrənildiyini, Azərbaycanda yerli hərbi məhsulların istehsal olunduğunu diqqətə çatdırmışdır: «Bu silahları biz alırıq və alacağıq. Eyni zamanda, Azərbaycanda son illərdə yerli istehsal da təşkil edilibdir. 2005-ci ildən bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunubdur və bu gün bu proses davam etdirilir. Gələcəkdə biz sursatlarla, texnika ilə özümüzü tam şəkildə təmin etməliyik. Eyni zamanda, ən müasir müxtəlif texnika alınır, alınacaqdır. Müasirləşmə prosesi daim aparılmalıdır».

Azərbaycan torpaqlarının işğal altında olduğunu xatırladan Prezident İlham Əliyev beynəlxalq təşkilatların qərar və qətnamələrinin icra edilmədiyini, ölkəmizə qarşı ikili standartlar siyasətinin aparıldığını vurğulamışdır: «Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər, ATƏT-in Minsk qrupu münaqişənin sülh yolu ilə həllindən daha çox qarşılıqlı etimad tədbirlərinin gücləndirilməsi ilə məşğuldurlar. Qarşılıqlı etimad tədbirlərinin içərisində birinci tədbir erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxarılmasıdır və danışıqlar mahiyyət üzrə aparılmalıdır. Əfsuslar olsun ki, vasitəçilər danışıqlarda ədalətin bərpa edilməsinə deyil, daha çox müharibənin olmaması ilə bağlı səy göstərirlər. Belə olan halda Azərbaycan ordu quruculuğuna daha da böyük diqqət göstərir, göstərəcəkdir və danışıqlar nəticə verməsə, bizim başqa yolumuz qalmayacaqdır».

Ali Baş Komandan bildirmişdir ki, biz müharibə istəmirik, biz sülh istəyirik. torpaqlarımızı, haqq-ədalətin bərpasını istəyirik. Heç kim heç vaxt qondarma «Dağlıq Qarabağ respublikası»nı tanımayacaq və Azərbaycan heç vaxt öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir: «Biz hələ ki, danışıqlara sadiq qalacağıq. Ancaq bir daha demək istəyirəm ki, səbrimiz tükənir və Azərbaycan Ordusu hər an Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırdır, buna qadirdir. Bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzün bərpasıdır. İşğal edilmiş torpaqlar ilk növbədə azad olunmalıdır, ondan sonra Dağlıq Qarabağ, - o da işğal edilmiş torpağımızdır, - Azərbaycan nəzarətində olmalıdır. Azərbaycan bayrağı işğal edilmiş bütün şəhərlərdə, o cümlədən Şuşada, Xankəndidə qaldırılmalıdır və qaldırılacaqdır. Bu, bizim əsas vəzifəmizdir. Biz bu vəzifəyə çatacağıq. Biz hər gün, hər an bu hədəfə yaxınlaşırıq. Bugünkü təlimlər bir daha onu göstərir ki, biz bu hədəfə bir addım da yaxınlaşmışıq».

Sonra Ali Baş Komandan İlham Əliyev iştirakı ilə bir qrup hərbçiyə 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni, «Vətən uğrunda» və «Hərbi xidmətlərə görə» medalları, eləcə də qiymətli hədiyyələrini təqdim olunmuşdur.

# Azərbaycanda siyasi və iqtisadi islahatlar dönməz xarakter daşıyır




*İyunun 28-də Bakıda ATƏT Parlament Assambleyasının «Helsinki+40: Hər kəs üçün təhlükəsizliyə doğru» devizi altında iyirmi üçüncü illik sessiyasının plenar iclasının açılış mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmiş, ATƏT-in 2011-2014-cü illərdəki fəaliyyətini əks etdirən fotostendə baxmışdır. Stenddə Azərbaycanın qurumdakı fəaliyyətindən bəhs edən fotolar xüsusi yer almışdır.*

ATƏT-in Parlament Assambleyasının prezidenti Ranko Krivokapiç iclası açıq elan edərək bu mötəbər tədbirə ev sahibliyi edən Azərbaycana və Prezident İlham Əliyevə tədbirin yüksək səviyyədə təşkilinə görə dərin minnətdarlığını bildirmişdir.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə həyata keçirilən demokratik siyasi islahatlar barədə danışmışdır. Dövlət başçısı bildirmişdir ki, respublikamızda demokratik təsisatların yaradılması, siyasi islahatların aparılması uğurlu inkişafımızın əsasını təşkil etmişdir: «Siyasi və iqtisadi islahatların eyni zamanda həyata keçirilməsi bizi böyük çətinliklərdən sığortaladı, sabit ölkə qurmağa imkan yaratdı və davamlı inkişafı mümkün etdi. Siyasi sahəyə gəldikdə, bildirmək istəyirəm ki, bu gün Azərbaycan funksional demokratik təsisatlara malik olan ölkədir. Biz demokratiyanın və qanunun aliliyinin inkişaf etdirilməsi, eləcə də fundamental azadlıqların təmin edilməsi üçün bir çox səylər göstəririk. Hesab edirəm ki, bu istiqamətdə böyük müvəffəqiyyətlər qazanmışıq. Azərbaycanda bütün fundamental azadlıqlar - toplaşmaq, təşkilatlanmaq, ifadə, media azadlıqları təmin edilir. Azərbaycanda yüzlərlə çap mediası vardır, internet azaddır, əhalimizin 70 faizdən çoxu internet istifadəçisidir».

Azərbaycanda iqtisadi və siyasi islahatların dönməz xarakter daşıdığını bildirən Prezident İlham Əliyev cələcək planlardan danışmışdır. «Gələn illər ərzində siyasi islahatlar gündəliyimizdəki əsas məsələlərdən biri olacaqdır. Biz daha çox işləməliyik, daha çox islahatlar həyata keçirməliyik. Əminəm ki, ATƏT və digər beynəlxalq təsisatlar qarşısında götürdüyümüz öhdəliklər və apardığımız əməkdaşlıq planlaşdırdığımız bütün işləri icra etməyə imkan yaradacaqdır.Əlbəttə ki, siyasi islahatlar cəmiyyətimizdə olduqca müsbət mühit yaradır. Siyasi vəziyyət sabitdir, proqnozlaşdırılandır. Bunun sayəsində biz gələcəyimizi elə planlaşdırırıq ki, müasirləşməyə nail olaq və Azərbaycanı dünyanın inkişaf etmiş ölkəsinə çevirək».

Ölkəmizin beynəlxalq təşkilatlarla əlaqələrinin inkişafından bəhs edən Azərbaycan Prezidenti bildirmişdir ki, Azərbaycan çox fəal xarici siyasəti ilə seçilən ölkədir. Ölkəmizin çox aydın xarici siyasət prioritetləri vardır: «Verdiyimiz vədlər həmişə gördüyümüz işlərlə üst-üstə düşür. Bu səbəbdən Azərbaycan hazırda etibarlı tərəfdaş sayılır, dost ölkələr, tərəfdaşlarımız buna görə bizə etimad göstərirlər. Bu, çox vacibdir. Çünki etimad elə bir şeydir ki, siz onu hər gün qurmalısınız. Yalnız bir səhv və ya yanlış addım bu etimadı məhv edə bilər. Buna görə də beynəlxalq ictimaiyyətin bir çox üzvləri, xüsusən Avropa ölkələri ilə fəal ikitərəfli münasibətlər bizim prioritetlərimizdən biridir. Bu sözləri həm də digər qitələrdə olan ölkələrə də şamil etmək olar».Ermənistanın regiondakı sabitlik üçün təhlükə olduğunu və Azərbaycanın torpaqlarını işğal etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan bu vəziyyətdən əziyyət çəkir, çünki biz 20 ildən çoxdur ki, erməni təcavüzü və işğalı ilə üzləşmişik. «BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilən ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr icra olunmamış qalır, kağız üzərində qalır. Münaqişənin həlli üçün atılacaq addımları aydın şəkildə müəyyən edən ATƏT-in qərarları, xüsusən də Lissabon Zirvə görüşünün qərarları da kağız üzərində qalır. Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təşkilatlar qərar və qətnamələr qəbul ediblər. Ermənistan sadəcə onlara məhəl qoymur. Onlar özlərinə məxsus olmayan ərazilərdən çıxmaq istəmirlər, mövcud vəziyyəti qoruyub saxlamaq fikrindədirlər. Onlar hətta ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının verdiyi bəyanatlara belə məhəl qoymurlar».

Prezident İlham Əliyev çıxışında ölkəmizdə həyata keçirilən iqtisadi proqramlardan, neft-qaz layihələrindən və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına Azərbaycanın rolundan da bəhs etmişdir.

2 Vergilər Nazirliyinin elektron kitabxanası uğurla fəaliyyət göstərir
3 Azərbaycanın mülki qanunvericiliyi Avropa hüquq sisteminin tələblərinə uyğundur
4 Azərbaycanın mövqeyi dünya reytinqində yüksəlir
5 Əmək müqaviləsi gələcəyin təminatıdır

# Sertifikatlar təqdim edilmişdir

*Ötən həftə Vergilər Nazirliyinin Çağrı Mərkəzində «Universal Çağrı Mərkəzi» layihəsinin gedişatı və keçirilmiş təlimlərdə iştirak etmiş dövlət qurumlarının nümayəndələrinə sertifikatların təqdim edilməsi ilə bağlı tədbir keçirilmişdir.*



Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədov bildirmişdir ki, «Univeresal Çağrı Mərkəzi» layihəsi respublikanın yeddi dövlət qurumunu: Maliyyə, Vergilər, İqtisadiyyat və Sənaye, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərini, Dövlət Gömrük Komitəsini və Dövlət Sosial Müdafiə Fondunu birləşdirir. Layihə iştirakçıları üçün «Çağrı Mərkəzinin idarə edilməsi», «Layihənin idarə edilməsi» və «Çağrı Mərkəzinin əsas prinsipləri» mövzusunda treninqlər keçirilmişdir.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəis müavini Məhəmməd Yunusov bildirmişdir ki, layihə ölkə başçısının sərəncamı ilə təsdiq olunmuş Elektron Azərbaycan Dövlət Proqramına salınmış bir tədbirdir. İcrasına 2010-cu ildən başlanılmış layihə ilə əlaqədər müəyyən araşdırmalar aparılmışdır. İlk olaraq hansı dövlət qurumlarının bu layihəyə qoşulmasını müəyyənləşdirmək üçün ekspertizalar keçirilmişdir. Nazirlər Kabinetinin sərəncamına uyğun olaraq, Vergilər və İqtisadiyyat və Sənaye nazirliklərinə Universal Çağrı Mərkəzinə qoşulacaq dövlət qurumlarına lazımi metodiki köməklərin göstərilməsi tapşırılmışdır. Bu tapşırığın icrası üçün Vergilər Nazirliyi tərəfindən dövlət qurumlarına «Çağrı Mərkəzinin fəaliyyətinin təşkili qaydaları» hazırlanaraq təqdim olunmuşdur. Həmin qaydalarda Çağrı Mərkəzinin əsas anlayışları, fəaliyyət göstəriciləri, bu istiqamətdə minimal hədəflər qeyd olunmuşdur.

Sərəncama uyğun olaraq yeddi dövlət qurumunda xidmət zallarının yaradılması və avadanlıqların yerləşdirilməsi işləri davam etdirilir. Universal Çağrı Mərkəzinin fəaliyyət göstərməsi üçün hazırlanmış proqram təminatı vasitəsilə layihədə iştirak edən dövlət qurumları bir-birinə inteqrasiya olunacaqdır.

Yaradılacaq xidmət barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə Universal Çağrı Mərkəzinin loqo və şüarının təqdim edilməsi üçün müsabiqə elan olunmuşdur. Çağrı mərkəzlərinin keyfyyətli və operativ xidmət göstərməsində insan amilinin əhəmiyyətini nəzərə alaraq həm sıravi əməkdaşların, həm də idarəedici heyətin təlim keçməsi xüsusi diqqətdə saxlanılır. Təlimlər iki istiqamətdə - qanunvericilik və Çağrı Mərkəzinə dair təlimatlandırma üzrə aparılır. Qanunvericilik sahəsindəki təlimlər hər bir dövlət qurumunun özü tərəfindən həyata keçirilir, Çağrı Mərkəzinə dair təlimlərin isə Vergilər Nazirliyinin təşkilatçılığı ilə icraçı şirkət tərəfindən təşkil olunması nəzərdə tutulmuşdur.

Sonda təlimlərdə iştirak etmiş dövlət qurumları nümayəndələrinə sertifikatlar verilmiş, qonaqlar və KİV nümayəndələri Vergilər Nazirliyinin Çağrı Mərkəzi ilə tanış olmuşlar.

**AYTƏN**

# Beynəlxalq konfransda zəruri çağırışlar müzakirə olunub

*Fransanın Marsel şəhərində Dünya Bankının Aralıq Dənizi Ölkələrinin İnteqrasiyası Mərkəzində «Vergi İnzibatçılarının Qlobal İnnovativ Təcrübələrinin Mübadiləsi» (TAXGIP) platformasının «Vergi qanunvericiliyinə riayət olunması üzrə məsələlərin idarə edilməsi sahəsində çağırışlar» mövzusunda 3-cü konfransı keçirilmişdir.*

Yerli və beynəlxalq səviyyədə vergi öhdəliklərinə əməletmə sahəsində rast gəlinən problemlərin həllinə, eləcə də vergi ödəyiciləri tərəfindən müstəqil hesabatverməyə və özünüqiymətləndirməyə əsaslanan könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə həsr olunmuş konfransda müzakirələr keçirilmiş, təcrübə mübadiləsi aparılmışdır.

Tədbirdə Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin Hüquqi təminatı şöbəsinin baş hüquqşünası Xamis Seyranov iştirak etmişdir.

# Əmanətlər bank sisteminin fondlaşdırılmasının 40%-ni təmin edir

Azərbaycan Mərkəzi Bankının baş direktoru Rəşad Orucov Qəbələdə V Azərbaycan-Rusiya Regionlararası Forumu çərçivəsində keçirilən «Rusiya və Azərbaycan banklarası əməkdaşlığının inkişafı» adlı «dəyirmi masa»da qeyd edib ki, son 5 ildə Azərbaycanda əmanətlərin həcmi 3,4 dəfə artıb: «Biz milli valyutada əmanətlərin xüsusi çəkisinin artımının müsbət tendensiyasını qeyd edirik. Əmanətlər Azərbaycan banklarının ümumi depozit bazasının 60%-indən çoxunu təşkil edir. Bank sisteminə etimadın əsas göstəricilərindən biri olan əhalinin əmanətləri bankların normal fəaliyyət göstərməsi üçün resurslar qismində vacib rol oynayır».

R.Orucov bildirib ki, 2008-ci ildə bank bazarında iki dəfədən çox artım olub: «Son 5 ildə bank sistemi üzrə ümumilikdə orta illik artım təqribən 15% təşkil edib. Böhranaqədərki artım tempi hazırda olduqca güclü olan aşağı depozit fonunda daha yüksək olub. Bankların institusional potensialı bu bazarda sabit artıma imkan verir. Son 5 ildə bank sektorunun kredit portfeli 2 dəfədən çox artaraq 15 milyard manatı ötüb, başqa sözlə, orta illik artım tempi 17% olub».

# Qeyri-həyat sığortası bazarında artım var

*Bu ilin ilk 5 ayında Azərbaycanda sığorta haqlarının 137 milyon manatı (73%) qeyri-həyat sığortasının payına düşüb. Ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-həyat sığorta bazarında cəmi 1,15 milyon manat artım olub.*

Qeyri-həyat sığortası üzrə yığımların 31%-i (42,5 milyon manat) tibbi sığortanın, 18,4%-i (25,2 milyon manat) avtomobillərin icbari sığortasının, 10,5%-i (14,4 milyon manat) kasko sığortanın, 9,3%-i (12,8 milyon manat) əmlakın yanğından və digər risklərdən sığortasının, 4,5%-i (6,2 milyon manat) daşınmaz əmlakın icbari sığortasının, qalanı isə digər qeyri-həyat sığortası növlərinin payına düşür.

Yanvar-may ayları ərzində sığorta bazarındakı ödənişlərin 94,7%-i (52,3 milyon manat) qeyri-həyat sığortasına aid olmuşdur. Qeyri-həyat sığortası üzrə ödənişlərin 36,3%-i (19 milyon manat) tibbi sığortanın, 21,4%-i (11,2 milyon manat) kasko sığortanın, 20,7%-i (11 milyon manat) avtomobillərin icbari sığortasının, 10,9%i (5,7 milyon manat) əmlakın yanğından və digər risklərdən sığortasının, 1,7%-i (868 min manat) isə daşınmaz əmlakın icbari sığortasının, qalanı isə digər qeyri-həyat sığortası növlərinin payına düşmüşdür.

İlin ilk beş ayı ərzində qeyri-həyat sığortası bazarında toplanmış hər 100 manat sığortahaqqı müqabilində 38,2 manat ödəniş həyata keçirilmişdir. Bu göstərici ötən ilin yanvar-may aylarında 34,8 manat olmuşdur.

**Qeyri-həyat sığortası üzrə yığımlar**
*yanvar-may 2014*




# Vergilər Nazirliyinin elektron kitabxanası uğurla fəaliyyət göstərir

*2014-cü ildən Vergilər Nazirliyinin daha bir informasiya resursu - elektron kitabxanası fəaliyyət göstərir. Vergi sisteminə aid məlumatların, qanunvericilik bazasının, tədris, təlim və təcrübə materiallarının cəmləndiyi e-kitabxana vergi xidməti əməkdaşlarının daxili istifadəsi üçün nəzərdə tutulmuş mühüm elektron məlumat bazasıdır.*

E-kitabxana çevik informasiya alətlərinin və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi, distant təhsilin genişləndirilməsinə nail olunması, elektron məlumat bazalarının yaradılması məqsədlərinə xidmət edir. E-kitabxana vergi qanunvericiliyi, vergi və vergitutma məsələləri ilə bağlı digər hüquqi aktları, aktual yeniliklər barədə informasiyaları, nazirliyin dərc etdiyi nəşrləri, eləcə də xarici ölkələrin vergi sisteminin tədqiqinə dair materialları özündə cəmləşdirən, mühafizə edən, onların sistemli və korporativ istifadəsini təmin edən, intellektual və peşəkarlıq potensialının inkişafına xidmət göstərən ən müasir proqram təminatına əsaslanır.

Belə bir məlumat bazasının hazırlanması bir sıra məqsədlərə xidmət edir. Birincisi, Vergilər Nazirliyinin fəaliyyətinə aid elektron informasiyaların vahid bazada toplanaraq sistemləşdirilməsi vergi əməkdaşlarına e-kitabxanada yerləşdirilmiş informasiyalardan daha çevik istifadə etməyə imkan verir. İkinci diqqət çəkən məqam e-kitabxanada vergi xidməti əməkdaşlarının xarici ölkələrə səfərləri zamanı əldə etdikləri təcrübələrlə bağlı materialların, təqdimatların və informativ resursların burada toplanmasıdır. Bu məlumat bazasının vergi xidməti əməkdaşlarının beynəlxalq təcrübəni öyrənməsi zamanı mənbə kimi əvəzsiz rolu vardır.

E-kitabxananın digər əsas bölmələri qanunvericilik, təqdimatlar, terminlər, indekslər, videomateriallar, tarix və vergi forumuna aid bölmələrdir. Bölmələr daim yenilənir, bütün qanunvericilik aktları, eləcə də nazirliyin əməkdaşları üçün təşkil edilən tədris və təlimlərin, xarici ölkələrdən gələn nümayəndə heyətlərinin təqdimatları ilə bağlı videomateriallar e-kitabxanaya yerləşdirilir. Bu isə vergi əməkdaşlarının funksional sahələr üzrə vəzifələrin yerinə yetirilməsi zamanı onlara qanunverici sənədləri, vergilərə dair videomateriallar və təlimatları rahat və səmərəli şəkildə əldə etməyə, xarici ölkələrin vergi sistemlərinin öyrənilməsinə və ən qabaqcıl təcrübələrin araşdırılmasına imkan verir.




Vergi əməkdaşlarının peşəkar fəaliyyətini təkmilləşdirmək məqsədilə yaradılmış «Vergi forumu» bölməsində gələcəkdə vergi sistemində tətbiq edilməsi gözlənilən layihələr, əməkdaşlar üçün aktual mövzular və məsələlər barədə müzakirələr, fikir mübadiləsi üçün imkan yaradılmışdır. Əməkdaşlar forum vasitəsilə vergi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflərini təqdim edir, şəxsi kabinetin yaratdığı imkanlardan istifadə edirlər.

E-kitabxananın indekslərə aid bölmədə beynəlxalq təşkilatların hər il Azərbaycanla bağlı hazırladıqları hesabatlar və indekslər, o cümlədən Dünya Bankının «Doing Business» hesabatı, Ümumdünya İqtisadi Forumunun hesabat və indeksləri, «Heritage» Fondunun İqtisadi Azadlıq İndeksi və digər beynəlxalq indekslər barədə icmallar və təhlil materialları daxil edilir.

E-kitabxananın «Nəşrlər» bölməsi də diqqət çəkir. Burada vergilərə dair kitabları, jurnalları, xarici ölkələrin vergi sisteminin icmal hesabatlarını və digər materialları əldə etmək mümkündür.

E-kitabxananın «Videomateriallar» bölməsində vergi sistemi üzrə keçirilən konfrans, forum və tədbirlərdə nazirlik təmsilçilərinin çıxışları, vergi sistemi üzrə hazırlanan filmlər və reklam məhsulları, ingilis dilinin tədrisi ilə bağlı ümumi və iqtisadi mövzularda videomateriallar yerləşdirilib.

E-kitabxananın mühüm üstünlüklərindən biri buradakı materialların yerindən asılı olmayaraq istifadəçi tərəfindən asanlıqla oxuna bilməsi, hər hansı materialın eyni anda qeyri-məhdud sayda istifadəçiyə təqdim edilməsi, xarici ölkələrin makroiqtisadi göstəriciləri və vergi sisteminə dair statistik məlumatların hazırlanması və yayılmasıdır.

E-kitabxana «Saybernet» şirkəti tərəfindən hazırlanmış yüksək proqram təminatı və istifadəçi interfeysinə malikdir. Buraya materialların daxil edilməsi üçün ən müasir metodlardan istifadə edilməklə xüsusi proqram təminatı hazırlanmışdır. E-kitabxananın müasir dizaynlı və çoxfunksiyalı imkanlara malik istifadəçi interfeysi http://e-kitabxana.taxes.gov.az ünvanında yerləşdirilib. E-kitabxanadan hüquqi aktlar və materiallar bölmələr və təsnifatlar üzrə, həmçinin axtarış pəncərəsi vasitəsilə əldə oluna bilir.

Ümumilikdə, e-kitabxananın Vergilər Nazirliyi qarşısında duran vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsində və vergi əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılmasında böyük əhəmiyyəti vardır və vergi sisteminə aid mühüm elekton məlumat bazası kimi yaxın gələcəkdə onun rolu daha da artacaqdır.

# Qanunu pozanlar cəzalandırılır

İyun ayının 23-dən 25-dək 6 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən Masallı rayonu Qəriblər kəndindəki «Dəmirağac» MMC-nin 3762 manat, Masallı şəhərində mebel sexinin sahibi fiziki şəxs Loğman Teymurovun 1636 manat, Lənkəran şəhərində fiziki şəxs Ramin Həsənovun 1105 manat vergi borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicilərinə bildiriş göndərilmiş, lakin borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Ona görə də Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, əmlakın siyahıya alınması haqqında qərar çıxarılmış və vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır.

8 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları isə İmişli şəhərində fiziki şəxslər Azər Abbasovun, Vilayət Əlibala oğlu Nəsirovun, Ağaməmməd Şükürovun da əmlaklarını eyni səbəbdən siyahıya almışlar.

# Gənclərin əmək fəaliyyətinə cəlb olunması üçün yollar axtarılır

*Əhalinin məşğulluq problemlərinin həlli, onların münasib işlərlə təmin edilməsi, işsizlik səviyyəsinin azaldılması dövlətin qarşısında duran əsas hədəflərdən biridir. Bu məqsədə nail olmaq üçün aidiyyəti qurumlar müxtəlif tədbirlər həyata keçirirlər.*

Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) Beynəlxalq Əmək Təşkilatı (BƏT) ilə birgə «Təhsildən məşğulluğa: gənc, ali təhsilli, ilk dəfə iş axtaranlara dəstək» pilot layihəsinin təqdimatını keçirib. Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun sözlərinə görə, ölkə əhalisinin 30%-ə qədərini təşkil edən gənclərin məşğulluğu aktual məsələlərdən biridir və yeni layihə bu baxımdan xüsusi önəm daşıyır. Ölkədə yeni-yeni iş yerlərinin açıldığını, əhalinin məşğulluq səviyyəsinin diqqətdə saxlanıldığını, yoxsulluğun səviyyəsinin endiyini qeyd edən nazir işsizlik probleminin həllinə xüsusi diqqət yetirildiyini qeyd edib: «Son 10 ildə ölkədə 1 milyon 200 mindən çox yeni iş yeri yaradılıb, işsizliyin səviyyəsi 5%-ə, yoxsulluğun səviyyəsi isə 45%-dən 5,3%-ə enib, əhalinin gəlirləri 6,5 dəfə çoxalıb. Bu gün dünyanın hətta inkişaf etmiş ölkələrində işsizlik kəskin problemə çevrildiyi halda, Azərbaycanda işsizlik səviyyəsi 5%-dək enib ki, bu da dünya ölkələri arasında nümunəvi göstəricidir. Bununla belə, nəzərə alsaq ki, ölkədə 15-29 yaşda gənclər arasında bu göstərici 9,9%, 15-24 yaşda olan şəxslər arasında isə 13,5% təşkil edir, o zaman gənclərin məşğulluğunun aktual məsələ olduğunu qeyd etməliyik».

S.Müslümov gənclərin məşğulluğu məsələsinin bütün dünya ölkələrinin gündəliyində mühüm yer tutduğunu qeyd edərək bildirmişdir ki, əsas problemlərdən biri ali təhsilli, ilk dəfə işaxtaran gənclərlə bağlıdır. Bu səbəbdən də ƏƏSMN BƏT-lə birgə bu məsələnin həlli istiqamətində sosial tərəfdaşlıq prinsipi əsasında pilot layihəyə başlayıblar. Layihə bir tərəfdən gənc mütəxəssislərin təhsildən aktiv əməyə keçidini asanlaşdırır, digər tərəfdən isə ilk dəfə işaxtaranları subsidiyalı əməkhaqqı ilə işə qəbul edən işəgötürənləri təşviq edir.

**AYTƏN**

# Azərbaycanın mülki qanunvericiliyi Avropa hüquq sisteminin tələblərinə uyğundur



*İyunun 23-dən 25-dək Vergilər Nazirliyində «Fiziki və hüquqi şəxslər. Mülki Məcəlləyə dəyişikliklər və əlavələr» mövzusunda geniş müzakirələr keçirilmişdir. Müzakirələrdə Cənubi Qafqazda məhkəmə-hüquq islahatlarının dəstəklənməsi proqramı üzrə çalışan Almaniyanın tanınmış ekspertləri Rolf Kniper və Axim Şkram, yerli ekpert Elçin Usub, eləcə də Mülki Məcəlləyə dəyişikliklərlə bağlı Vergilər Nazirliyində yaradılmış komissiyanın üzvləri iştirak etmişlər. Tədbir çərçivəsində almaniyalı ekspertlər Rolf Kniper və Axim Şkramla görüşüb fikirlərini öyrəndik.*



***- Azərbaycan hökuməti ilə mülki qanunvericiliyin təkmilləşdirilməsinə dair nə vaxtdan əməkdaşlıq edirsiniz?***

*Rolf Kniper:* - Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsi və hüquqi islahatlarla bağlı prosesi 18 ilə yaxındır ki, izləyirik. Azərbaycana ilk dəfə 1996-ci ildə səfər etmiş, ölkənizdə mülki və hüquqi islahatların həyata keçirilməsi vəziyyəti ilə yaxından tanış olmuşam. Hökumətin bu istiqamətdə iradəsini nəzərə alaraq qanunların hazırlanmasına dəstək məqsədilə 1998-ci ildən müvafiq qurumlarla intensiv əməkdaşlığa başlamışıq. Ötən dövr ərzində əsas fəaliyyətimiz Mülki-Prosessual Məcəllənin təkmilləşdirilməsini, digər hüquqi aktların hazırlanmasında beynəlxalq hüquqa uyğun müddəaların qanunvericilikdə öz əksini tapmasını əhatə etmişdir. Fəaliyyətimiz dövründə irəli sürdüyümüz təklif və tövsiyələr bir sıra mühüm qanunların qəbul olunmasında nəzərə alınıb, Azərbaycan hökuməti ilə mülki hüquq islahatlarının həyata keçirilməsində birgə nailiyyətlər əldə etmişik. Hazırda qanunvericiliyin təkmilləşdirilməsi sahəsində işimiz davam edir - digər hüquqi aktlara əlavə və dəyişikliklər üzərində çalışırıq.

*Azərbaycanın vergi sistemində vergilərin toplanması işinin yaxşılaşdırılmasına töhfə verən yeniliklərlə yanaşı, sahibkarların mənafeyinin qorunmasını, qeydiyyat sisteminin təkmilləşdirilməsini təmin edən mühüm addımlar atılıb*

***- Azərbaycandakı mülki qanunvericiliyin beynəlxalq qanunvericiliyin norma və təcrübələrinə uyğunlaşdırılması məsələsini necə qiymətləndirirsiniz?***

*Rolf Kniper:* - Azərbaycanda mülki-prosessual qanunvericiliyin müasir Avropa hüquq standartlarına uyğunlaşdırılması sahəsində xeyli iş görülmüşdür. Ölkənizin Mülki Məcəlləsi yaxşı işlənmiş qanunvericilik toplusu hesab oluna bilər və Avropa hüquq sisteminin tələblərinə uyğundur. Məcəllə müxtəlif iqtisadi sahələrdə insanların fəaliyyəti, bazar iştirakçılarının mənafelərinin təmin olunması, sahibkarlığa başlama və biznes maraqları, əmlak xarakterli olmayan xüsusi münasibətlərin hüquqi şəkildə tənzimlənməsi və digər məsələləri əhatə edir. Mülki Məcəllədən başqa, digər hüquqi aktlar, inzibati sahədə islahatlar ölkədə müasir hüquq dövlətinə xas olan prinsiplərin təmin olunduğunu təsdiqləyir. Ümumiyyətlə, Azərbaycanın mülki qanunvericiliyi fərdlər və fərdlərlə dövlət arasında olan münasibətlərin tənzimlənməsi baxımından təkmildir. Qanunvericilik bazasının təkmilləşdirilməsi sayəsində sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi, vergi yükünün azaldılması, sağlam rəqabətin təmin edilməsi, investorların hüquqlarının qorunması, özəl sektorun və çoxşaxəli bazar iştirakçılarının formalaşması mümkün olub.

***- Sizin mövqeyinizə görə, Azərbaycanda Mülki Məcəlləyə hazırda nəzərdə tutulan əlavə və dəyişiklikləri zəruri edən başlıca amillər hansılardır?***

*Rolf Kniper:* - İnkişaf etmiş istənilən ölkədə hökumət iqtisadi subyektlərə, biznes nümayəndələrinə müxtəlif hüquqi vasitələr təklif edir ki, onlar təşkilati-hüquqi formasından asılı olmayaraq bundan istifadə etsinlər. Bu, onların fəaliyyətinin bütün hüquqi tərəflərinin normal və sivil formada qurulması üçün zəruridir. Azərbaycanda iqtisadi fəaliyyət, biznes üçün güclü hüquqi zəmin vardır. Amma bazar iqtisadiyyatının yeni tələblərinin meydana çıxması və iqtisadi əlaqələrin coğrafiyasının genişlənməsi mülki qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac yaradır. Dövlətin müxtəlif təşkilatların fəaliyyətinə müasir formalar əsasında yanaşması, biznesə münasibətdə daha sivil müstəviyə keçməsi yeni sistemin tətbiqi şəraitində normativ-hüquqi aktlarda dəyişikliklərin edilməsini zəruriləşdirir.

*Axim Şkram:* - Azərbaycanda iqtisadi və siyasi proseslər davam edir və ölkədə islahatların müasir çağırışlara uyğun daha da təkmilləşdirilməsi zəruridir. Hazırkı iqtisadi inkişaf tempi bir sıra hüquqi sənədlərə yenidən baxılmasını gündəliyə gətirmişdir. Biznes mühitinin davamlı olaraq dünyada mövcud mütərəqqi yeniliklərə uyğun təkmilləşdirilməsi, idarəetmədə yeni texnologiyaların geniş tətbiq olunması vacib məsələlərdəndir və sözsüz ki, bu amillər Mülki Məcəllədə nəzərdə tutulan dəyişikliklərin bir hissəsini təşkil etməlidir. Apardığımız araşdırmalara əsasən, bir sıra sahələrdə islahatların davamı üçün qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var. Həmin sahələrdə mövcud olan boşluqları aradan qaldırmaqla ölkənin inkişafını daha da sürətləndirmək mümkündür. Hazırda bu istiqamətdə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla Azərbaycanın dövlət qurumları ilə birlikdə hüquqi islahatlar layihəsi üzərində işləyirik. İnanırıq ki, islahatların dönməzliyinə sadiq qalan, davamlı şəkildə beynəlxalq qanunvericiliyi mənimsəməkdə qətiyyətli olan hökumət mülki qanunvericiliyə nəzərdə tutulan əlavə və dəyişiklikləri yaxın vaxtlarda qəbul edəcəkdir.

***- Qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac olduğunu deyəndə konkret olaraq hansı sahələri nəzərdə tutursunuz?***

*Rolf Kniper:* - Biznes nümayəndələrinin bir qisminin hüquqi şəxslər olduğunu nəzərə alsaq, bəzi sahələr üzrə onların fəaliyyətini məhdudlaşdıran amillər var: sahibkarlıq subyektlərindən tutmuş maliyyə-kredit və digər sahələrdə bu proses müşahidə edilir. Onlara daha geniş imkanlar yaratmaq, həmçinin biznes mühitinin sağlamlaşdırılması, təsisçilərin və kreditorların hüquqlarının etibarlı müdafiəsini təşkil etmək üçün qanunvericilikdə müəyyən təkmilləşdirmələr vacibdir. Hesab edirəm ki, yeni əlavələr Azərbaycanın iqtisadi-siyasi həyatında baş verən köklü dəyişiklikləri özündə əks etdirəcək, biznes subyektlərinin mənafelərinin daha səmərəli qorunmasına, rəqabət mühitinin dərinləşməsinə, azad sahibkarlığın inkişafı ilə bağlı vəziyyətin yaxşılaşmasına güclü baza yaradacaqdır.

***- Mülki qanunvericiliyə dəyişikliklərin bir hissəsi vergi sahəsi ilə bağlıdır. Bu sahədə indiyədək görülmüş işləri necə qiymətləndirərdiniz?***

*Rolf Kniper:* - Azərbaycanın vergi sisteminin vəziyyəti ilə tanış olduqdan sonra Vergilər Nazirliyinin əməkdaşlarının işlərinə hansı səviyyədə ciddi yanaşdığını gördük, nazirliyin tətbiq etdiyi yeni texnologiyaların dövlət-biznes münasibətlərinə təsirinin şahidi olduq. Bu sistemdə sahibkarların mənafeyinə xidmət edən və hüquqi təhlükəsizliyini qoruyan müxtəlif vasitələr həyata keçirilir. Vergi sahəsində tətbiq olunan yeni standartlar bazarın bütün iştirakçılarının fəaliyyətini stimullaşdırmağa xidmət edir və vergilərin yığılmasına mühüm təsir göstərir. Təəssüratlarımıza əsasən deyə bilərəm ki, vergi sistemində vergilərin toplanması işinin yaxşılaşdırılmasına töhfə verən yeniliklərlə yanaşı, sahibkarların mənafeyinin qorunmasını, qeydiyyat sisteminin təkmilləşdirilməsini təmin edən mühüm addımlar atılıb. Azərbaycanda fiziki və hüquqi şəxslərin sahibkarlıq fəaliyyətinin onlayn rejimində qeydiyyatı, vergi bəyannamələrinin elektron qəbulu aparılır, yoxlamaların vahid məlumat reyestri yaradılıb. Qanunvericilik aktlarında hüquqi şəxslərin dövlət qeydiyyatı ilə bağlı edilmiş dəyişikliklərin, dövlət reyestrinin aparılmasının əhəmiyyəti xüsusilə böyükdür. Vergilər Nazirliyinin sahibkarlıq subyektlərinin elektron qeydiyyatı sisteminin tətbiqinə başlaması da çox mühüm hadisədir. Ümumiyyətlə, sahibkarlıq subyektlərinin qeydiyyatı sahəsində həyata keçirilən mütərəqqi islahatları yüksək dəyərləndiririk və bunu Azərbaycanda biznes mühitinin yaxşılaşmasının mühüm vasitəsi hesab edirik.

*Axim Şkram:* - Bizim məlumatımıza görə, Azərbaycanın vergi sistemində inzibatçılığın təkmilləşdirilməsi və qeydiyyat sahəsində islahatlar həyata keçirilməkdədir. İndiyədək sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı ilə bağlı xeyli işlər görülüb. Xüsusilə də son illərdə «e-qeydiyyat» sisteminin tətbiqinə başlanılması, bununla əlaqədar yeni hüquqi sənədlərin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Bizə verilən məlumata görə, bu vasitələr tətbiq olunduqdan sonra sahibkarlar kütləvi şəkildə elektron qeydiyyata üstünlük verirlər. Dövlət-biznes münasibətlərini tənzimləyən və dövlətin bazar iştirakçılarının işinə müdaxiləsini məhdudlaşdıran bu xidmətlərin göstərilməsi orta və kiçik sahibkarlığa, ümumilikdə biznes mühitinin yaxşılaşmasına təkan verir.

**Elbrus CƏFƏRİ**

## «Vergi dostları» ilə görüş

5 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları tərəfindən idarənin nəzarət əhatəsinə daxil olan rayonlarda fəaliyyət göstərən «Vergi dostları» şəbəkəsinin üzvləri ilə iyun ayında beş görüş keçirilmişdir.

Görüşlərdə ölkədə aparılan vergi siyasəti, gənc nəslin, o cümlədən orta təhsil müəssisələrinin şagird və müəllim heyətinin vergilər haqqında bilik və anlayışlarının artırılması və onlarda vergi mədəniyyətinin formalaşdırılması istiqamətində Vergilər Nazirliyi ilə Təhsil Nazirliyi arasında əməkdaşlıq sahəsində görülmüş işlər müzakirə edilmişdir. Müzakirələr zamanı əsas diqqət gənc nəslin vergilər haqqında biliklərinin artırılması, vergi ödəyiciləri arasında vergi mədəniyyətinin və könüllü əməletmə səviyyəsinin yüksəldilməsi sahəsində «Vergi dostları» şəbəkəsi üzvləri tərəfindən görüləcək işlərə, eləcə də yarana biləcək çətinliklərə yönəldilmişdir.

## PİN-kodsuz plastik kartlar

*Azərbaycan Beynəlxalq Bankı ilk dəfə ölkədə təmassız plastik kartlar buraxmağa başlayıb. Bu kartların istifadəçiləri 20 manata qədər ödənişləri PİN-kod yığmadan həyata keçirə biləcəklər. Bankdan verilən məlumata görə, yeni kartlar «Visa PayWave» adlanır və adından göründüyü kimi, «Visa» tiplidir.*

Bütün dünyada geniş tətbiq olunan bu kartlar təhlükəsiz şəkildə və qısa müddət ərzində malların və xidmətlərin haqqını ödəməyə imkan verir. 20 manata qədər ödəniş etmək üçün kartı POS-terminala yaxınlaşdırmaq kifayətdir.

PİN-kodsuz plastik kartların tətbiqi məqsədilə Beynəlxalq Bank Bakının 70-ə yaxın iri ticarət müəssisəsində PayWave terminalları quraşdırmaq niyyətindədir. POS-terminallar Visa PayWave kartları ilə yanaşı, adi qaydada bütün çipli və maqnit zolaqlı kartları (MasterCard, Visa, Amex, Diners) da qəbul edəcək.

Bu kartlara üstünlük verən bankın mövqeyinə görə, təmassız kartlar kassalarda növbələrin azalmasına səbəb olacaq və Azərbaycanda nağdsız ödənişlərin kütləviləşməsinə gətirib çıxaracaq.






Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Vergi minimallaşdırılması

Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq subyektlərinin marağındadır ki, öz biznes fəaliyyətləri ilə bağlı çəkdikləri xərclər, o cümlədən vergi ödəmələri minimum həddə olsun. Vergi nəzəriyyəsində «vergilərin azaldılması», «vergidən qaçma», «vergidən yayınma», «vergilərin minimallaşdırılması», «vergilərin optimallaşdırılması», «vergilərin planlaşdırılması» və s. bu kimi ifadələrə tez-tez rast gəlmək olar. Vergi ödəyicilərinin vergiləri azaltmaq istəkləri müxtəlif terminlərlə ifadə olunsa da, əsas mahiyyət nəzərə alınmaqla, bunları çox vaxt «vergi minimallaşdırılması» adı altında birləşdirirlər.

Vergi minimallaşdırılması dedikdə, vergi ödəyiciləri tərəfindən dövlət xəzinəsinə vergi, rüsum, yığım və s. icbari ödəmələr şəklində çəkilən xərclərin azaldılmasına yönəldilən hərəkətlər başa düşülür. Vergi ödəyicilərinin bu hərəkətlərinin əsas mahiyyətini və məqsədyönlü olmasını nəzərə alaraq onun iki əsas əlamətini - biləkdən edilən və vergilərin azaldılmasına yönəldilən hərəkət kimi vurğulamaq olar. Yəni vergilərin azaldılması zamanı ödəyicilər müxtəlif yollarla vergi ödəmələrində müəyyən qənaətin əldə edilməsinə nail olurlar. Lakin təcrübədə vergi ödəyicilərinin ehtiyatsız hərəkətləri və qanunun tələblərini bilməmələri nəticəsində vergilərin azaldılması halları da baş verə bilər. Belə hallarda vergi ödəyicisi qanunvericiliklə müəyyən edilmiş maliyyə sanksiyalarından azad olunmasa da, bunu vergi ödəmələrindən bilərəkdən yayınma halları kimi qiymətləndirmək olmaz.

*Vergi minimallaşdırılması dedikdə, vergi ödəyiciləri tərəfindən dövlət xəzinəsinə vergi, rüsum, yığım və s. icbari ödəmələr şəklində çəkilən xərclərin azaldılmasına yönəldilən hərəkətlər başa düşülür*

Vergi minimallaşdırılması ilə bağlı müxtəlif mülahizələrin iqtisadi ədəbiyyatda əks etdirilməsinə baxmayaraq, onun sosial-iqtisadi təzahür kimi qeyd olunması bu günədək qeyri-rəsmi xarakter daşıyır. Mütəxəssislərin fikrincə, vergi minimallaşdırılması amilinə iki mövqedən yanaşmaq lazımdır. Birincisi, dövlət tərəfindən həyata keçirilən fiskal tədbirlər vergi yükünün artmasına gətirib çıxarır. İkincisi, vergi yükünün artması nəticəsində vergi ödəyiciləri istənilən yolla, o cümlədən qeyri-qanuni şəkildə vergi ödəmələrinə qənaət etməyə çalışırlar. Dövlət qeyri-qanuni yolla əldə edilən qənaətlə bağlı halların aşkar olunub aradan qaldırılması üzrə tədbirlər görür.

Dövlət mövcud olduqca və dövlət xəzinəsinin əsas gəlir mənbəyi vergi daxilolmalarından ibarət olduqca vergi qanunvericiliyinə zidd sosial-iqtisadi amil olan vergini ödəməmək və ya az məbləğdə ödəmək cəhdləri də davam edir. Bunu müəyyən mənada obyektiv hal da saymaq olar: çünki dövlət quruluşundan, idarəetmə formasından və ictimai mənəviyyatdan asılı olmayan amildir. O, ümumiyyətlə, vergilərin fiskal funksiyasından, həmçinin iqtisadi-hüquqi mahiyyətindən irəli gəlir. Vergilərin iqtisadi-hüquqi mahiyyəti dedikdə, vətəndaşların mülkiyyətində olan vəsaitin dövlətin məqsədləri üçün məcburi qaydada tutulan bir hissəsi başa düşülür. Vergidən yayınma cəhdləri dövlətin həyata keçirdiyi hər hansı fiskal tədbirə qarşı vergi ödəyicisinin xüsusi reaksiyası deməkdir. Təbii ki, verginin azaldılması ilə bağlı vergi ödəyicilərinin cəhdləri dövlətin cavab reaksiyasını yaradır. Vergidən yayınmaqla vergi ödəyicisi əldə etdiyi vəsaitləri özündə saxlamağa cəhd etdiyi kimi, dövlət də xəzinəyə ödənilməli olan vəsaitlərin tam və vaxtında yığılmasını təmin etməyə çalışır. Vergi ödəyicilərinin vergi yükünün azaldılması ilə bağlı istənilən qanunazidd hərəkəti dövlətin fiskal orqanlarının ciddi müqaviməti ilə qarşılanır. Bunlar həm vergi ödəyicilərinin maliyyə sanksiyalarına məruz qalma reallığını artırır, həm də belə halların aşkar edilib aradan qaldırılması üzrə dövlətin inzibati xərclərinin artmasına rəvac verir. Vergilərin minimallaşdırılması ilə bağlı baş verən halların qaçılmaz və obyektiv olduğunu nəzərə alaraq, dövlət də mübarizəni gücləndirməklə yanaşı, problemin qanunvericilik çərçivəsində tənzimlənməsinə çalışır.

Qeyd etmək lazımdır ki, qabaqcıl ölkələrin, eləcə də Azərbaycanın vergi qanunvericiliyində vergilərin ödənilməsinə nəzarətin həyata keçirilməsi prosesini tənzimləyən normalar müəyyən olunmuşdur. Həmin normalara əsasən, vergi ödəyiciləri vergilərin minimallaşdırılması ilə bağlı özlərinin qanuni maraqlarının müdafiəsi üçün zəruri hərəkətlərin həyata keçirilməsi imkanlarına malikdirlər. Buna misal olaraq, vergilərin hesablanmasına və ya qəbul edilmiş qərarlara dair vergi orqanlarından izahların alınmasını, təkrar vergi yoxlamasının keçirilməsini tələb etmək imkanlarını və s. göstərmək olar. Vergi qanunvericiliyində vergidən yayınmaların qarşısının alınması ilə bağlı vergi nəzarətinin həyata keçirilməsi halları və qaydaları da əks etdirilmişdir.

Yuxarıda göstərilənlər deməyə əsas verir ki, vergi minimallaşdırılması ilə bağlı vergi ödəyicilərinin qeyri-qanuni hərəkətlərinin qarşısının alınması ilə bağlı vergi orqanlarının həyata keçirdikləri nəzarət tədbirləri o vaxt daha səmərəli olur ki, belə halların araşdırılması və meydana çıxan vergi münasibətlərinin tənzimlənməsi qanunvericilik çərçivəsində həyata keçirilsin.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlak vergisi

***Mülkiyyətimdə olan mənzilə görə əmlak vergisini hansı qaydada ödəməliyəm?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra - Məcəllə) 196-cı maddəsinə əsasən, həmin Məcəllənin 197-ci maddəsində göstərilən vergitutma obyektləri olan fiziki şəxslər və müəssisələr əmlak vergisinin ödəyiciləridir. Məcəllənin 197.1.1-ci maddəsinə əsasən, rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri, həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələri əmlak vergisinin vergitutma obyektləridir.

Məcəllənin 198.1.1-ci maddəsinə əsasən, fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalarının inventarlaşdırılmış dəyəri 5000 manatadək olduqda bu dəyərdən vergi tutulmur, 5000 manatdan çox olan məbləğdən isə vergi 0,1 faizlə hesablanır.

Bundan əlavə, Məcəllənin 200.1-ci maddəsinə əsasən, binalar üzrə əmlak vergisi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada binaların inventar dəyərinə uyğun hesablanılır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2000-ci il tarixli 393 nömrəli fərmanının 1-ci hissəsinə əsasən, Məcəllənin 200.1-ci maddəsində nəzərdə tutulan «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28 iyun 1999-cu il tarixli qərarı ilə «Fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyərinin hesablanması Qaydası» təsdiq edilmişdir. Qeyd olunan Qaydaya əsasən, fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyəri onların texniki inventarlaşdırılması əsasında müəyyənləşdirilir.

«Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə uyğun olaraq, tikililər və onların hissələrinə görə fiziki şəxslərdən əmlak vergisi hesablamaq məqsədi ilə bələdiyyələr 3-5 ildə bir dəfədən çox olmamaq şərti ilə ərazilərində yerləşən müvafiq əmlakın vergiqoyma məqsədləri üçün qiymətləndirilməsi barədə qərar qəbul edirlər. Əmlakın qiymətləndirilməsi üzrə əməliyyatlar bələdiyyələrin vəsaiti hesabına maliyyələşdirilir. Bu dəyər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan qaydalar əsasında müəyyənləşdirilir.

Həmçinin, Məcəllənin 200.4-cü maddəsinə əsasən, bələdiyyələr verginin ödənilməsi barədə tədiyyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər. Məcəllənin 200.5-ci maddəsinə əsasən, cari il üçün hesablanmış əmlak vergisinin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək bələdiyyə büdcəsinə ödənilir.

Fiziki şəxslərin əmlak vergisi, Məcəllənin 200.6-cı maddəsinə uyğun olaraq, yerli (bələdiyyə) büdcəyə ödənilir.

# Məşğulluq strategiyasının icrası diqqət mərkəzindədir

*Azərbaycanda inkişaf və tərəqqiyə xidmət edən iqtisadi islahatların mühüm hədəflərindən biri də məşğulluğun səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və əhalinin yüksək rifah halının təmin edilməsidir. Ölkədə biznes mühitinin liberallaşdırılması, sahibkarlığın inkişafı, vergi dərəcələrinin optimallaşdırılması, infrastrukturun müasirləşdirilməsi və digər istiqamətlərdə həyata keçirilən tədbirlər məşğulluq strategiyasının uğurla reallaşdırılmasına imkan yaradıb.*

Regionların sosial-iqtisadi inkişafı, yeni müəssisələrin açılması hesabına son 10 ildə ölkədə məşğulluğun səviyyəsi 2003-cü ildəki 9,7%-dən 2014-cü ildə 4,9%-ə enib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2014-cü ilin birinci rübünün sonuna ölkədə iqtisadi fəal əhalinin sayı 4 milyon 765,9 min nəfər olub, bunun da 95,1%-ni iqtisadiyyatın və sosial bölmənin müxtəlif sahələrində məşğul olanlar təşkil edir. Muzdla çalışan işçilərin sayı 1 milyon 494,1 min nəfərdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6% çoxdur. Muzdla çalışanların 97,6%-i qeyri-neft sektorunda, 2,4%-i isə neft sektorunda işləyir.

Ötən illərdə imzalanmış bir sıra dövlət proqramları, fərman və sərəncamlar əhalinin məşğulluğunun təminatında mühüm rol oynayıb. Bu baxımdan, ölkə başçısının 2011-ci il 15 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı»nın əhəmiyyətini xüsusi qeyd etmək lazımdır.

Dövlət Proqramında Vergilər, İqtisadi İnkişaf və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin qarşısında kompleks tədbirlərin keçirilməsi mühüm vəzifə kimi müəyyənləşdirilib. Sənədə əsasən, bu dövlət qurumları 2011-2015-ci illərdə ölkədə makroiqtisadi sabitlik sahəsində əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi; yerli sənaye məhsullarının dünya bazarında rəqabət qabiliyyətinin yüksəldilməsi; ədalətli rəqabət mühitinin formalaşdırılması və inkişafı; təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şəraitin yaradılması; qeyri-formal məşğulluğun qarşısının alınması; kiçik və orta sahibkarlığın inkişafının, eləcə də fərdi əmək



fəaliyyəti ilə məşğul olanların iqtisadi həvəsləndirilməsi istiqamətində tədbirlər həyata keçirməlidirlər.

Proqramda Vergilər Nazirliyinin qarşısında yeni iş yerlərinin yaradılması üçün regionlara investorların cəlb edilməsi məqsədi ilə investisiya imkanlarının araşdırılması, xarici investorlara təqdim ediləcək konkret investisiya təkliflərinin hazırlanması istiqamətində konkret tədbirlərin həyata keçirilməsi; sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədi ilə təsərrüfat subyektlərinin qeydiyyatı sisteminin təkmilləşdirilməsi sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi; ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədi ilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğulolma hallarının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi və digər vəzifələr qoyulub.

2011-2013-cü illərdə Vergilər Nazirliyi strategiyada nəzərdə tutulmuş bir sıra tədbirlərin həyata keçirilməsini təmin edib. Bu baxımdan, sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədi ilə təsərrüfat subyektlərinin qeydiyyatı sisteminin təkmilləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər xüsusilə diqqət çəkir. Təkcə 2013-cü ildə fərdi sahibkarların «e-qeydiyyat» sistemi vasitəsilə 27 min 414 fiziki şəxsin vergi uçotuna alınması təmin edilib. 2014-cü il yanvarın 1-dək 82 min 500 nəfər fərdi sahibkar elektron qaydada qeydiyyata alınıb. Həmin müddətdə «e-qeydiyyat» sistemi vasitəsilə 4236 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət də dövlət qeydiyyatına alınıb. E-qeydiyyatın tətbiqi yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin qeydiyyatı üçün əvvəlki prosedurları aradan qaldırıb. Nəticədə ölkədə biznesə başlama prosedurlarının sayı 6-dan 3-ə, sərf edilən müddət 8 gündən 7 günə, vəsait isə 95 manatdan 34 manata enib. Sahibkarlıq subyektlərinin qeydiyyatının «ASAN xidmət» mərkəzləri vasitəsilə həyata keçirilməsi də mühüm yeniliklərdən biri olub. 2013-cü il ərzində «ASAN» xidmət mərkəzlərində 3793 sahibkarlıq subyekti dövlət qeydiyyatına alınıb.

Dövlət Proqramı əsasında ədalətli rəqabət mühitinin formalaşdırılması istiqamətində də müvafiq tədbirlər həyata keçirilib. Xüsusən qanunsuz sahibkarlıq və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğulolma hallarına qarşı operativ nəzarət tədbirləri gücləndirilib. Həyata keçirilən tədbirlər nəticəsində ötən il sahibkarlıq fəaliyyəti göstərən 3393 şəxsin vergi orqanlarında qeydiyyatdan keçmədiyi aşkarlanıb, onlara qarşı 127,1 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilib.

Bundan başqa, proqrama əsasən, sahibkarlıqla məşğul olan şəxslərin məlumatlandırılması və vergi öhdəliklərinin yerinə yetirilməsinə əlverişli şəraitin yaradılması istiqamətində tədbirlər davam etdirilib. «Vergi ödəyicilərinə xidmətlərin vahid standartları» təsdiq olunub, vergi ödəyicilərinə xidmət mərkəzləri tərəfindən əlavə 50 adda xidmətin göstərilməsinə başlanılıb.

Strategiyaya əsasən,Vergilər Nazirliyi regionlara investisiyaların cəlb edilməsi məqsədi ilə investisiya imkanlarının araşdırılması istiqamətində də müvafiq tədbirlər həyata keçirir.

**S.MUSTAFAYEV**

# Azərbaycanın mövqeyi dünya reytinqində yüksəlir

*BMT dünya ölkələrinin «elektron hökumət»in inkişaf səviyyəsinə görə yeni «United Nations E-Government Survey 2014» adlı reytinqini dərc edib. Reytinq göstəriciləri informasiya və rabitə texnologiyalarından əhaliyə xidmət göstərmək üçün istifadəyə görə hakimiyyət orqanlarının hazırlıq və bacarığının ölçülməsi indeksinə əsasən müəyyən edilib. Ümumdünya siyahısında Azərbaycan əvvəlki sıralama ilə müqayisədə 28 pillə irəliləyərək Çin, Türkiyə, Serbiya kimi ölkələri geridə qoyub və 68-ci yeri tutub.*

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) şöbə müdiri İsfəndiyar Əliyevin sözlərinə görə, Azərbaycanda «e-hökumət»in qurulması dövlətin əsas strateji hədəflərindən biridir və bu məqsədlə qəbul edilmiş «2013-2015-ci illərdə elektron hökumətin inkişafı Dövlət Proqramı»nda nəzərdə tutulan layihələrin həyata keçirilməsi «e-hökumət» üzrə mühüm nəticələr verib: «Son illərdə dövlət orqanlarının müasir İKT-dən istifadəni genişləndirməklə idarəetmənin yeni metod və mexanizmlərini tətbiq etməsi, «e-hökumət» infrastrukturunun yeni komponentlərinin yaradılması, dövlət qurumlarının fəaliyyətinin səmərəliliyinin artırılması, şəffaflığın təmin edilməsi, vətəndaşların hökumət orqanları ilə əlaqələrinin daha sadə və münasib elektron üsullarla həyata keçirilməsi geniş vüsət alıb. Dövlət orqanlarının «e-hökumət» portalına inteqrasiyası sürətlənib, elektron sənəd dövriyyəsi genişlənib, xidmətlərin «bir pəncərə» prinsipi əsasında təşkili təmin edilib».

İ.Əliyevin sözlərinə görə, «elektron hökumət»in tətbiqi ölkəmizin iqtisadi-siyasi-sosial-ictimai həyatında mühüm dönüş yaradıb və idarəetmə sisteminin təkmilləşməsinə təkan verib. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, dövlət-biznes münasibətlərinin yaxşılaşması, onların elektron xidmətlər göstərməsi sayəsində vətəndaşların müraciətlərinə daha operativ şəkildə baxılması «e-hökumət» çərçivəsində həyata keçirilən ciddi tədbirlərin nəticəsidir: «Dövlət orqanları tərəfindən əhaliyə bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli və rahat həyata keçirilməsi məqsədi ilə 2012-ci ildə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təsis edilməsi və bu qurumun nəzdində «ASAN xidmət» mərkəzlərinin fəaliyyətə başlaması öz bəhrələrini göstərməkdədir. Bütün bunlar Azərbaycanda «elektron hökumət» quruculuğunun davamlı və mühüm nəticələrinin göstəricisidir».

*Elektron ödəniş xidmətlərinin və nağdsız ödəniş alətlərindən istifadənin genişləndirilməsi məqsədilə Milli Ödəniş Sisteminin infrastrukturu təkmilləşdiriləcək*

Hazırda «Elektron hökumət»lə bağlı yeni Dövlət Proqramı hazırlanır və müəyyənləşdirilmiş əsas hədəflər sırasında elektron xidmətlərin təkmilləşdirilməsi, dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin işinin gücləndirilməsi, regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması, e- xidmətlər göstərilməsi üzrə qiymətləndirmələrin ictimaiyyətə açıqlanması, maliyyə orqanlarının fəaliyyətində şəffaflığın artırılması və maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət sisteminin yaradılması mühüm yer tutur.

«E-hökumət» proqramında dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi, ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi, əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şəbəkələrinin yaradılması da əsas tədbirlər sırasındadır. Dövlət orqanları tərəfindən «Açıq qapı» vətəndaş forumlarının keçirilməsi, ictimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə olunması da nəzərdə tutulur.

Dövlət Proqramında rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq qurumların birgə fəaliyyətinin inteqrasiyası, e-ödəmə strukturlarının fəaliyyətinin stimullaşdırılması və digər tədbirlər nəzərdə tutulub. Elektron ödəniş xidmətlərinin və nağdsız ödəniş alətlərindən istifadənin genişləndirilməsi məqsədilə Milli Ödəniş Sisteminin infrastrukturu təkmilləşdiriləcək. Bu istiqamətdə görüləcək tədbirlərə bankların göstərdiyi elektron xidmətlərin çeşidinin artırılması, bank-müştəri münasibətlərinin elektronlaşdırılması, kart infrastrukturunun genişləndirilməsi, ticarət, iaşə və xidmət sahələrində POS-terminalların quraşdırılmasının kütləviləşdirilməsi, regionlarda, xüsusilə kənd yerlərində elektron ödəniş xidmətlərindən istifadə imkanlarının yaradılması aiddir. RYTN bu məqsədlə genişzolaqlı internet sisteminin yaradılmasını yaxın 3 il ərzində tam başa çatdıracaq. Bu, e-xidmətlərin növünün artmasına səbəb olacaq, «e-hökumət» portalına inteqrasiyanın sürətlənməsinə və yeni xidmətlərin ona qoşulmasına imkan verəcək.

**Elbrus CƏFƏRLİ**

aktual

# Sahibkarların maraqları qorunur

**«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsinə əsasən, yoxlayıcı orqan tərəfindən hesabat dövründə sahibkarlar üçün daha aktual suallar önə çəkilməklə, izah edilməsi tələb olunan normativ hüquqi aktların müddəaları ilə bağlı məsləhətlər verilir və görülmüş işlər barədə illik hesabatlar hazırlanır. Vergi ödəyiciləri üçün daha aktual olan istiqamətlər barədə məlumatlandırma işləri aparmaq məqsədilə qəzetimizin bu buraxılışından məlumatlandırma formalarını təqdim edirik.**

*Vergi Məcəlləsinin 38.1-ci maddəsinə əsasən, növbəti səyyar vergi yoxlaması keçirildikdə vergi orqanı tərəfindən vergi ödəyicisinə vergi yoxlamasına başlanmazdan əvvəl bildiriş göndərilməlidir.*

Qanuna əsasən, vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət vergi orqanlarının vəzifələrinə aid edilmişdir. Həvalə edilən nəzarət funksiyalarının yerinə yetirilməsi vasitələrindən biri də səyyar vergi yoxlamalarının keçirilməsidir. Mahiyyət etibarilə səyyar vergi yoxlaması (vergi auditi) vergi ödəyicilərinin vergi bəyannamələri, uçot sənədləri, vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri, habelə vergi ödəyicisinin elektron daşıyıcılarındakı məlumatları və s. əsasında bir qayda olaraq vergi ödəyicisində aparılan, başqa sözlə, yerlərə gedərək aparılan vergi yoxlamasıdır.

Səyyar vergi yoxlaması növbəti və növbədənkənar ola bilər. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmayaraq keçirilir və müstəsna hallar olmadıqda, 30 gündən artıq davam edə bilməz. Növbədənkənar səyyar vergi yoxlamasından fərqli olaraq, növbəti səyyar vergi yoxlaması zamanı vergi ödəyicisinə vergi yoxlamasının başlanmasından azı 15 gün əvvəl yazılı bildiriş göndərilməlidir. Bu müddət ərzində vergi ödəyicisi yoxlama üçün ilkin uçot sənədlərini və digər mühasibat sənədlərini hazırlamalı, həmin müddət bitdikdən sonra səyyar vergi yoxlaması başlayarkən vergi orqanının qanuni tələbi ilə yoxlamanı aparan şəxsə təqdim etməlidir.

Bununla yanaşı, səyyar vergi yoxlamasının başladığı günədək vergi ödəyicisi müstəqil olaraq vergi hesabatlarını bir daha yoxlaya və vergi qanunvericiliyinin pozulması halları aşkar edildikdə vergi yoxlamasının başlandığı günədək onları aradan qaldıra bilər.

*Rubrikanı Vergi ödəyicilərinə xidmət Baş İdarəsi aparır*

# AYİB Azərbaycanda həyata keçirilən biznes islahatlarını yüksək dəyərləndirir

*BMT-nin təsnifatına əsasən ümumi daxili məhsul istehsalının həcminə görə «Yuxarı inkişaf etmiş ölkələr» qrupuna daxil olan respublikamızda adambaşına düşən ümumi daxili məhsulun 7000 dolları ötməsi bir tərəfdən ölkənin zəngin iqtisadi resurslarının sosial rifah məqsədinə yönəldilməsini, digər tərəfdən sabitlik və inkişafın təminatçısı olan sahibkarlar sinfinin mövqelərinin möhkəmlənməsini təmin edir.*



*Son iki ildə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər mütərəqqi xarakteri ilə ölkədə biznes mühitinin yaxılaşmasına, iqtisadiyyatın rəqabət qabiliyyətinin güclənməsinə mühüm töhfə olub*

Azərbaycanda biznes mühitinin liberallaşdırılması və əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər müxtəlif beynəlxalq təşkilatlar və biznes qurumları tərəfindən müsbət qarşılanır. Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) kommunikasiya və ünsiyyət üzrə direktoru Conatan Çarlz Bakıya səfəri zamanı bildirib ki, təmsil etdiyi qurum Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması sahəsində görülən işləri alqışlayır. Vurğulanıb ki, son illər Azərbaycanın əldə etdiyi yüksək tərəqqi AYİB üçün sevindiricidir: «Biz Azərbaycan hökuməti ilə bir çox uğurlara, nailiyyətlərə imza atmışıq. Bu ilin 5 ayı ərzində birgə layihələrə yatırılan investisiyaların həcmi bütünlükdə 2013-cü ildəkindən çoxdur. Birgə layihələrimiz davam edir».

İlin əvvəlindən beynəlxalq maliyyə qurumları analitiklərinin ölkəmizlə bağlı nikbin proqnozlar səsləndirməsi çevik makroiqtisadi siyasətin səmərəli nəticələrinə əsaslanır. Xüsusilə də neft və qaz gəlirlərindən asılılığın ilbəil azaldılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər son illər qeyri-neft sektorunun ümumi daxili məhsuldakı (ÜDM) xüsusi çəkisinin artmasına səbəb olub. Müxtəlif maliyyə qurumlarının 2014-cü ildə Azərbaycanda ÜDM-lə bağlı nikbin proqnozları, ilk növbədə, respublikamızda makroiqtisadi sabitliyin və əlverişli biznes mühitinin formalaşdırılması sahəsində aparılan islahatlar ilə bağlıdır. Respublikamızda biznesə başlama və vergi nəzarəti tədbirləri ildən-ilə sadələşdirilir, vergi inzibatçılığı təkmilləşdirilir, vergi dərəcələri optimallaşdırılır.

Xatırlatmaq yerinə düşər ki, son iki ildə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər mütərəqqi xarakteri ilə ölkədə biznes mühitinin yaxılaşmasına, iqtisadiyyatın rəqabət qabiliyyətinin güclənməsinə mühüm töhfə olub. Kiçik və orta sahibkarlıq subyektlərinə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artırılması, iş adamlarının fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, sahibkarlıq subyektlərinin qeydiyyatı sisteminin sadələşdirilərək «vahid pəncərə» prinsipi əsasında aparılması, gömrük orqanlarında da bu sistemin təşkili, texnoparkların yaradılması, korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi və digər addımlar xüsusi vurğulanır.

Son illər, həmçinin, ölkədə sahibkarlığın inkişafının yeni təşkilati-iqtisadi modellərinin - xüsusi iqtisadi zonaların, aqrar-sənaye komplekslərinin, texnoparkların və biznes-inkubatorların tətbiqi sahəsində ardıcıl işlər aparılır. Bütün bunlar göstərir ki, dövlətin özəl bölmənin inkişafı və dəstəklənməsi ilə bağlı həyata keçirdiyi tədbirlər davamlıdır, məntiqi cəhətdən biri-birini tamamlayır.

Ölkə başçısının 2014-cü il 3 mart tarixli «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» fərmanı da sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsinə və əlverişli biznes mühitinin formalaşdırılmasına stimul verir. İqtisadçı ekspertlərin fikrincə, fərman əsasında hazırlanacaq təkliflər tikintiyə icazələrin verilməsini, elektrik təchizatı şəbəkəsinə qoşulmanı, daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı şərtlərinin sadələşdirilməsini, idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılmasını təmin edəcəkdir. Fərman respublikamızda biznes mühitinin daha da liberallaşmasını, sahibkarlar üçün münbit fəaliyyət imkanlarının yaradılmasını nəzərdə tutur.

AYİB təmsilçisi Conatan Çarlz Azərbaycanda dinamik iqtisadi uğurların əldə olunmasında iqtisadiyyatın şaxələndirilməsi tədbirləri ilə yanaşı, korrupsiyaya qarşı mübarizə, şəffaflığın və hesabatlılığın təmini sahəsində gerçəkləşdirilən islahatların da əhəmiyyətini diqqətə çəkib. Bildirib ki, təmsilçisi olduğu maliyyə qurumu həyata keçirilən islahatların nəticələrindən razıdır: «İqtisadiyyatın şaxələndirilməsi ilə əlaqədar Azərbaycan hökuməti ilə tərəfdaş olmaq bizim üçün çox xoşdur. Biznes mühitinin yaxşılaşdırılması və korrupsiya ilə mübarizə sahəsində bütün səviyyələrdə görülən işləri yüksək dəyərləndiririk. Bu sahədə nəzərəçarpan müsbət nəticələr müşahidə olunur. Xüsusilə elektron hökumət və onlayn hökumət vasitələrinin yaradılmasını və onlardan istifadəni qeyd etmək istəyirəm. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması və korrupsiya ilə mübarizə sahəsində bütün səviyyələrdə görülən işləri alqışlayırıq».

AYİB təmsilçisinin vurğuladığı kimi, son illər Azərbaycanda elektron xidmətlərin tətbiqi sürətləndirilmiş, fiziki və hüquqi şəxslərin sahibkarlıq fəaliyyətinin onlayn rejimdə qeydiyyatına, vergi bəyannamələrinin elektron qəbuluna başlanmış, aparılan yoxlamaların vahid məlumat reyestri yaradılmışdır. Bununla yanaşı, icazələrə dair yaradılmış internet portalı icazə xarakterli sənədlər və onların alınması prosedurları, təqdim edilməli sənədlər, icazələrin verilmə müddətinə dair bütün məlumatları vahid mənbədən əldə etmək imkanı yaratmışdır. Ölkəmizdə elektron xidmətlərin tətbiqi ictimai həyatın bütün sahələrini, o cümlədən sahibkarlıq fəaliyyəti ilə bağlı xidmətləri də əhatə edir. Hazırda müxtəlif dövlət qurumları üzrə 420-dən çox xidmət elektron formada həyata keçirilir və bunların sayı davamlı olaraq artır. Sahibkarlıq fəaliyyəti sahəsində tənzimləməni həyata keçirən əsas dövlət qurumlarından olan Vergilər Nazirliyinin e-xidmətlərin sayına görə lider dövlət qurumu olması da xüsusi vurğulanmalıdır.

**Samir MUSTAFAYEV**

# Əmək müqaviləsi gələcəyin təminatıdır

***Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Vergi Partnyorluğu Sazişi»: qarşılıqlı inam və etimad körpüsü», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 64 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata, 10 yazı isə həvəsləndirici yerə layiq görülmüşdür.***

***Müsabiqədə yüksək yer tutmuş jurnalistlərin məqalələrini oxucuların diqqətinə təqdim edirik.***

*... «Müdir heç bir səbəb göstərmədən məni işdən çıxartdı», «Sınaq müddəti adıyla iki ay işlədib, sonra da pul vermədilər», «Vəd etdiklərindən çox az maaş aldım», «İxtisara düşdüyümü elə işdən çıxarılan gün bildim» - təəssüf ki, bu cür şikayətlərə tez-tez rast gəlirik. Bəzən özəl qurumlar tərəfindən əmək qanunvericiliyinin tələbləri kobud şəkildə pozulur. Belə hallarla üzləşən vətəndaşların isə əl-qolu bağlı olur, heç yerə şikayət edə bilmirlər. Çünki işə düzələndə əmək müqaviləsi bağlanmayıb...*

Statistikaya görə, Azərbaycanda işləyən insanların əksəriyyəti müqavilə olmadan çalışır. Ölkəmizdə 4,5 milyon nəfər məşğul insanın cəmi 1,5 milyonu əmək müqaviləsi bağlayıb. Qeyri-rəsmi hesablamalara görə, 3 milyonun təxminən 450-500 min nəfəri mülki-hüquqi müqavilə əsasında çalışanlar, 500 mindən çoxu torpaq mülkiyyətçiləridir. Yerdə qalanlar isə qeyri-formal əmək bazarının iştirakçılarıdır.

Milli Məclisin deputatı Kamilə Əliyeva bu cür qanunsuzluqlarda əsas günahı sahibkarlarda görür. Onun sözlərinə görə, sahibkarlar öz xeyirləri naminə məsuliyyətlərini azaltmaq və daha az vergi ödəmək üçün işçilərlə əmək müqaviləsi bağlamırlar: «Sonra da hansısa bədbəxt hadisə baş verdikdə işçi kompensasiya ala bilmir, sahibkar da sudan quru çıxır».

Deputat bu sahədə daha ciddi tədbirlərin görülməsini zəruri sayır.

***Sahibkarlar işçi sayını da, maaşı da az göstərirlər...***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Fuad Əlizadə etiraf edir ki, bir çox işəgötürənlər qeyri-leqal əmək münasibətlərinə yol verməklə həm işçi hüquqlarını pozaraq iş yerləri rəsmiləşdirilmədən onlara iş həvalə edirlər, həm də vergiləri ödəməkdən yayınırlar. Onun sözlərinə görə, iqtisadiyyatın ayrı-ayrı sektorlarında çalışan vergi ödəyiciləri muzdlu işlə əlaqədar vergi bəyannamələrində əməkhaqqı məbləğlərini bilərəkdən az göstərirlər. Bəzən bu rəqəmlər təsərrüfat subyektinin real potensialı ilə uzlaşmır, həmin sektorda fəaliyyət göstərən digər vergi ödəyicilərinin əməkhaqqı göstəricilərindən bir neçə dəfə aşağı olur. Əksər özəl şirkətlərdə vergidən və sosial sığorta ödənişlərindən yayınmaq məqsədilə iş yerlərinin sayı da az göstərilir, muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi hesabatlarına real vəziyyəti əks etdirən göstəricilər daxil edilmir.

Əmək qanunvericiliyinin qorunmasına nəzarət, əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən aparılır. Bu xidmətin keçirdiyi müntəzəm yoxlamalar nəticəsində işçilərlə əmək müqaviləsinin bağlanması təmin edilir. Məsələn, 2014-cü ilin ilk rübü ərzində ayrı-ayrı müəssisələr üzrə 2951 nəfər işçi ilə əmək münasibətlərinin əmək müqaviləsi əsasında rəsmiləşdirilməsi təmin olunub.

***Vergilər Nazirliyi 201800 işçi ilə müqavilə imzalanmasını təmin edib***

Vergilər nazirinin müşaviri İlqar Əhmədov bildirir ki, qeyri-leqal məşğulluğun leqallaşdırılması istiqamətində Vergilər Nazirliyi tərəfindən xüsusi Tədbirlər Planı qəbul edilib. Dövlət Əmək Müfəttişliyi və Dövlət Sosial Müdafiə Fondu ilə əlaqəli şəkildə vergi və əmək qanunvericiliyinə əməl olunmasına nəzarət gücləndirilib. «Əmək münasibətləri sahəsində vergi nəzarətinin gücləndirilməsi barədə» Konsepsiya hazırlanıb. Bunlarla yanaşı, əmək münasibətlərinə çevik nəzarətin təmin edilməsi üçün nazirlikdə xüsusi qərargah yaradılıb.

İndiyədək Vergilər Nazirliyi 240 minə yaxın aktiv vergi ödəyicisinə əmək münasibətləri sahəsində qanunvericiliyin tələbləri ilə bağlı məktublar, 210 minə yaxın vergi ödəyicisinə əmək müqavilələrinin bağlanılması haqqında SMS-lər göndərib: «Həyata keçirilmiş tədbirlər nəticəsində vergi orqanları tərəfindən 58000 vergi ödəyicisi üzrə 201800-dən çox əmək müqaviləsi barədə məlumat yeni yaradılmış elektron məlumat bazasına daxil edilib. İki və daha çox obyekti olan, amma heç bir işçi sayı göstərməyən vergi ödəyiciləri barədə tədbirlərin görülməsi üçün göstəriş məktubları göndərilib».

***İş yerini gizlətmək kimə daha çox ziyandır?***

Qeyri-leqal məşğulluq əksər hallarda işçi ilə işəgötürən arasında gizli razılaşma əsasında ortaya çıxır. Lakin həmin işçi fərqinə varmır ki, burada uduzan tərəf, birinci növbədə, onun özüdür. Çünki məşğulluğun rəsmiləşdirilməsi sonradan pensiya-müavinət təyinatında mühüm rol oynayır. Gələcəkdə normal pensiya almaq istəyən hər bir kəs daha çox sosial sığorta haqqının ödənilməsinə çalışmalıdır. Elə maaşın olduğundan az göstərilməsi də pensiyanın miqdarına təsir edən amillərdəndir.

Bunlarla yanaşı, müqavilə imzalamayan işçi ödənişli əmək məzuniyyətindən, birdəfəlik müavinətlərdən, hətta əməkhaqqının ödənilməsindən məhrum olur. Əgər vətəndaşın işlədiyi müəssisə ilə əmək müqaviləsi yoxdursa, bu zaman işəgötürən onu istənilən zaman heç bir vəsait ödəmədən işdən azad edə bilər.

İlqar Əhmədov digər vacib məsələyə də toxunur. Onun sözlərinə görə, əmək müqaviləsinin olmaması sahibkarların özünə də böyük ziyan gətirir: «Məsələn, əgər əmək müqaviləsi olmadan işləyən əməkdaş müəssisəyə və ya fərdi sahibkara məxsus bahalı əmlakı sıradan çıxararsa və ya əmlaka ciddi ziyan vurarsa, belə işçilərə qarşı qanuni tədbirlərin görülməsi necə həyata keçirilə bilər? Bu fəsadlarla üzləşməmək üçün həm işçi, həm də işəgötürən əmək müqaviləsi bağlamağa maraqlı olmalıdır».

***Vergi faizləri əsas səbəb deyil***

Adətən, sahibkarlar qanunsuz əməllərinə don geyindirməyə çalışırlar: əməkhaqqından tutulan gəlir vergisinin və məcburi sosial sığorta haqlarının dərəcələri yüksəkdir. Sahibkar gəlirinin 14%-ni vergilərə verməli, işçiyə verdiyi məvacibin 22%-i qədər də məcburi sosial ödəniş etməlidir. Bu isə ümumilikdə əməkhaqqı fondunun 37%-ni təşkil edir. Ona görə də belə iddia olunur ki, hazırkı faiz dərəcələri sahibkarların gəlirlə işləməsinə mane olur. Bu məqsədlə indiyədək bir neçə qurum tərəfindən hökumətə faiz dərəcələrinin aşağı salınması ilə bağlı təkliflər də təqdim olunub.

Amma bəzi ekspertlər hesab edirlər ki, bu, əsas amil deyil. «Professional audit» jurnalının redaktoru Mehdi Babayevin fikrincə, bəzən sahibkarlar əmək müqaviləsinin özü ilə gətirdiyi sənədləşmələrdən yayınmaq üçün qanunsuzluğa yol verirlər: «Çünki əmək müqaviləsinin bağlanması ilə yeni əmək münasibətləri yaranır ki, bu da işə götürən tərəf üçün daha çox məsuliyyət tələb edir. Özü də qanuna görə, əmək müqaviləsi məhz işə götürülən fiziki şəxsə daha üstün imtiyaz və hüquqlar verir, işə götürən daha çox yoxlama və dövlət orqanlarının nəzarəti altına düşür. Sahibkarlar da bunu birmənalı qarşılamırlar».

***Heç kim «başını ağrıtmaq» istəmir***

Hazırda Azərbaycanda kommersiya müəssisələri içərisində bir və ya bir neçə işçisi olan kiçik sahibkarlıq subyektləri sayca çoxluq təşkil edir. M.Babayev hesab edir ki, onlar da əmək müqaviləsi bağlayıb başlarını ağrıtmaq istəmirlər: «Belə kiçik sahibkarlar fiziki şəxslə mülki-hüquqi müqavilə bağlayaraq fəaliyyətlərini davam etdirməyə üstünlük verirlər. Amma istehsal, iş və ya xidmət sferası iri olan müəssisələrdə işçi sayı çox olmalıdır. Buna görə də belə yerlərdə işçilərlə əmək münasibətlərini tənzimləyən konkret ştat işçiləri mövcud olur ki, onlar da sahibkarın ağır yükünü çəkmiş olurlar».




***Bəs dayə, bağban və qulluqçular necə olsun?***

Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov hesab edir ki, Əmək Məcəlləsində sahibkar olmayan fiziki şəxs anlayışı da nəzərə alınmalıdır. Çünki Azərbaycanda son illər fərdi şəxslərin evlərində müxtəlif iş və xidmətlərin görülməsi üçün işçi cəlb etməsi hallarının sayı artıb. Bura xadimə, şəxsi sürücü, bağban, qulluqçu və s. aiddir ki, həmin şəxslərin sosial və əmək hüquqlarının qorunması qanunvericilikdə dəqiq nəzərə alınmalıdır.

***Yeni qaydalar işçiləri daha çox müdafiə edir***

Qeyd edək ki, qeyri-leqal məşğulluğun qarşısını almaq məqsədilə bu yaxınlarda müvafiq pozuntulara görə cəzalar sərtləşdirilib. Cinayət Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, işçilərin əmək müqaviləsi bağlanmadan işə cəlb olunmasına görə işəgötürənlər 7 min manatdan 10 min manatadək cərimə, yaxud 3 il müddətinə azadlıqdan məhrum edilə bilərlər. Qaydaların bu qədər sərtləşdirilməsində başlıca məqsəd ölkədə bütün işəgötürənləri işçilərlə əmək müqaviləsi bağlamağa vadar etməkdir.

Əmək Məcəlləsinə edilmiş dəyişikliklərdə əmək müqavilələri ilə bağlı elektron informasiya sistemi əhatə olunub. Məcəllənin 49-cu maddəsinə edilmiş dəyişikliyə əsasən, əmək müqaviləsinin bağlanılması (ona dəyişiklik edilməsi və ya xitam verilməsi) yalnız o halda qüvvəyə minmiş sayılır ki, elektron bildiriş həmin elektron informasiya sistemində qeydiyyata alınsın və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilsin. Yəni bu dəyişikliklərdən sonra təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün işəgötürənlər əmək müqaviləsi bildirişini elektron informasiya sistemində qeydiyyatdan keçirməlidirlər.

***İş yerindən arayış lazım olmayacaq***

Elektron bildirişin olması həm işçi, həm də sahibkarın hüquqlarının qorunması üçün əlavə təminat formasıdır: işəgötürən razılaşdırılmış konkret şərtlərin şəffaf şəkildə icrasını təmin edə biləcək, vətəndaş da harada işlədiyini asanlıqla sübut edəcək. Məsələn, bu sistemin tətbiqindən sonra insanların öz iş yerlərindən və ya əməkhaqları barədə arayış təqdim etmələri xeyli asanlaşacaq. Bu və ya digər təşkilat tərəfindən vətəndaşın əməkhaqqı barədə məlumat istənildiyi zaman onunla bağlanmış və elektron informasiya sistemində mövcud olan əmək müqaviləsi bildirişini çap edərək həmin təşkilata təqdim edəcək. Bu bildiriş formasını vətəndaş onu tələb edən təşkilatın «e-ünvanı»na da göndərə biləcək.

İndiyədək bağlanılmış və qüvvədə olan əmək müqavilələri barədə məlumatları sistemə yükləmək üçün işəgötürənlərə iyulun 1-dək vaxt verilib. Hələlik isə elektron informasiya sisteminin təkmilləşdirilməsi üzərində iş gedir.

**Pərvin MƏMMƏDOVA,**
*«Modern.Az» saytı*

asudə vaxt

# Maraqlı anlarla dolu səyahət

Vergilər Nazirliyində işçilərin istirahətinin və asudə vaxtının maraqlı və səmərəli təşkili daim diqqət mərkəzindədir. Yay istirahət mövsümündə nazirlik rəhbərliyinin dəstəyi və Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə vergi orqanları əməkdaşlarının respublikamızın səfalı guşələrinə, görməli yerlərinə, tarixi məkanlarına, istirahət ocaqlarına qısamüddətli səfərlərinin təşkili artıq yaxşı bir ənənəyə çevrilib. Belə səfərlər işçilərə yüksək əhval-ruhiyyə, gümrahlıq bəxş edir, asudə vaxtlarını şən və mənalı keçirmək imkanı yaradır.

Ötən həftənin sonunda Xaçmaz rayonunun Nabran istirahət zonasına təşkil edilmiş ikigünlük turist səfəri də bu baxımdan unudulmaz və yaddaqalan olub. Səfərdə Vergilər Nazirliyinin Bakı şəhərindəki strukturlarının əməkdaşlarından ibarət 60 nəfərlik qrup iştirak edib.

Nabrandakı «Malibu» ailəvi istirahət mərkəzində rahat və səliqəli kottеclərdə yerləşdirilən əməkdaşların yaxşı istirahət edib dincəlməsi üçün hər cür şərait yaradılıb. Yaşıllıqlarla əhatə olunmuş ərazi, milli mətbəximizin ləziz təamlarının təklif olunduğu yeməkxana və çayxana, müxtəlif zövqlərə uyğun musiqilərin səsləndirildiyi diskoteka, təmiz, ılıq sulu geniş hovuz turistlərin ixtiyarına verilib. Mərkəzin diqqətli və qayğıkeş işçi heyətinin göstərdiyi xidmət də hər kəsin ürəyincə olub.

Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Məmməd Məmədovun belə səfərlərin təşkilindəki çoxillik təcrübəsi bu dəfə də öz sözünü deyib. Səfər planına əsasən, vergi orqanı əməkdaşları öz füsunkarlığı və qədimiliyi ilə tanınan Qubaya səyahət zamanı, ilk növbədə, buradakı Soyqırımı Memorial Kompleksini ziyarət ediblər. Orijinal görünüşlü monumental abidə kompleksində tarixi sənədlərlə, eksponatlarla tanış olan vergi işçiləri kütləvi məzarlıqdakı müxtəlif yaş qruplarına aid insan cəsədi qalıqlarına dərin kədər hissi ilə baxıb, bu amansız qətli, vəhşi soyqırımını törətmiş bolşevik-erməni quldurlarını bir daha lənətləyiblər. Tarixi həqiqətlərin xalqımızın yaddaşında əbədi yaşaması üçün bu kompleksin yaradılmasının mühüm əhəmiyyət daşıdığı bildirilib, soyqırımı qurbanlarının ruhuna dualar oxunub.




Sonra vergi işçiləri Qubanın gəzməli-görməli yerlərinə baş çəkib, «Qəçrəş» istirahət zonasında olublar. Burada Qudyalçayın sahilindəki günəş şüalarının düşə bilmədiyi sıx meşəlikdə, iri çətirli hündür ağacların yaşıl budaqları altında çay süfrəsi arxasında şirin söhbət edib, təbiətin gözəlliklərindən zövq alıblar.

İkigünlük səfərin hər anı, hər saatı maraqlı və mənalı keçib. Quba və Xaçmazın təbii gözəllikləri, Nabranın sıx yaşıllıqları, sərin havası, Xəzərin ləpədöyənindəki əsrarəngiz mənzərələr səfər iştirakçılarında xoş təəssürat yaradıb.

Qısamüddətli səfərdə iştirak edənlər nazirlik rəhbərliyinin və yerli həmkarlar təşkilatının göstərdiyi diqqət və qayğıdan razılıqlarını bildiriblər, onları bu səfərdə müşayiət edən komitə sədri Məmməd Mənmədova belə səmərəli fəaliyyətinə görə təşəkkür ediblər.

vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | 31 | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».
21 iyul - «(1-1)», «3», «4», «8», «9», 10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür. Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür. «Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

5-ci MƏRHƏLƏ *(davamı)*

***Maliyyə hesabatlarının hazırlanması***

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın 1-ci «Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti» bölməsində əks etdirilən bəzi sətirlərin müsbət və ya mənfi işarə ilə əks etdirilməsi barədə izahları davam etdirək.

1-ci bölmənin «Hesabat dövründə xalis mənfəət» sətrində göstərici müsbət işarə ilə əks etdirilir. Məntiq beledir ki, əgər müəssisə hesabat ilini mənfəətlə başa vurmuşdursa, deməli müəssisənin kapitalı artmışdır və bu da aktivin artmasına təsir göstərir. Aktivdə artım əgər pul şəklindədirsə, deməli, hesabat ilinin sonuna pul hesablarındakı məbləğ artmışdır. Yaranan xalis mənfəətə görə hesabatın sonunda əks etdirilən artan pul qalığı məbləğinə çatmaq üçün «Hesabat dövründə xalis mənfəət» sətrində göstərici müsbət işarə ilə əks etdirilməlidir.

1-ci bölmənin «Mənfəət vergisi üzrə xərclər» sətrində göstərici müsbət işarə ilə əks etdirilir. Bu göstərici müəssisənin ümumi (uçot) mənfəətinin məbləğinə 20% tətbiq edilməklə yaranan uçot mənfəəti vergisi üzrə hesablanmış məbləğdir. Məntiq belədir ki, mənfəət vergisinin hesablanması nəticəsində ümumi mənfəətin məbləği (yəni mənfəətin məbləği qədər artan pul məbləği) süni olaraq azaldılır, lakin hesablanmış mənfəət vergisi üzrə bu məbləğ hələ ödənilmədiyinə görə pul hesablarında qalmış kimi təzahür edir. Bu məbləğlərin də pul hesablarında qalması pulun faktiki son qalığını artıran amildir. Belə aydın olur ki, pulun son qalığına çatmaq üçün hesablanmış mənfəət vergisinin məbləği hesabatda müsbət işarə ilə əks etdirilməlidir.

1-ci bölmənin «Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər» sətrində göstərici müsbət işarə ilə əks etdirilir. Bu göstərici əsasən müəssisənin torpaq, tikili və avadanlıqlarına, qeyri-maddi və digər aktivlərinə amortizasiya tətbiqi nəticəsində hesablanmış amortizasiya məbləğlərindən ibarətdir. Məntiq belədir ki, biz hazırkı hesabat dövründə pul şəklində xərc kimi təzahür etməyən, lakin hesablanmış amortizasiya məbləğlərini hesabat ilinin xərclərinə aid etməklə yaranmalı mənfəətin məbləğini süni olaraq azaldırıq, deməli, hesablanmış amortizasiya üzrə bu məbləğ hələ xərclənməmiyinə və ya hazırda pul şəklində heç vaxt çəkilməyən xərc olduğuna görə, azaldılan ümumi mənfəətin məbləği qədər pul hesablarında vəsait artmış olur. Belə aydın olur ki, pulun artmış son qalığına çatmaq üçün hesablanmış amortizasiya məbləği hesabatda müsbət işarə ilə əks etdirilməlidir. Sual oluna bilər ki, amortizasiya olunan aktivlərə əvvəlki tarixlərdə pul xərclənərək alınmışdır və bu əməliyyat pulun azalmasına təsir edən amildir. Məsələ ondadır ki, bu əməliyyat hesabatın 2-ci «İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti» bölməsinin «Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları» sətrində minus işarə ilə əks etdirilir.

1-ci bölmənin «investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr» sətrində göstərici müsbət və ya mənfi işarə ilə əks etdirilə bilər. Məntiq belədir ki, müəssisənin ümumi mənfəətinin tərkibinə həm investisiya fəaliyyəti, həm də maliyyələşdirmə üzrə fəaliyyətlə əlaqədar gəlirlər və (və ya) xərclər aid edildiyindən ümumi mənfəətin həcminə müsbət və ya mənfi təsir edilir, yəni əsas əməliyyat fəaliyyətindən yaranan ümumi mənfəətin məbləği investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətin nəticələrinin məbləğləri qədər arta və ya azala bilir. Əgər 1-ci sətirdə əks etdirilən «Hesabat dövründə xalis mənfəət» göstəricisinin tərkibində investisiya fəaliyyəti və (və ya) maliyyələşdirmə üzrə fəaliyyətin nəticələrinin məbləğlərinin olduğunu güman etsək, deməli, bu fəaliyyətlər üzrə maliyyə təsirini aşağıda nəzərə almalıyıq, yəni investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan mənfəəti minusla, zərəri isə müsbətlə əks etdirməliyik, əməliyyat fəaliyyəti üzrə mənfəətin məbləğini dəqiqləşsin. Məsələn, avadanlığın satışı üzrə müştəridən daxil olan pul hesabatın 2-ci «İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti» bölməsinin «Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları» sətrində müsbət işarə ilə əks etdirilməsinə baxmayaraq, hesabatın 1-ci bölməsinin «investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr» sətrində həmin avadanlığın satışından mənfəət (zərər) mənfi (müsbət) işarə ilə əks etdirilir.




qara siyahı

# Borclu vergi ödəyiciləri

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin 1-ci bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Vergi Məcəlləsinin 16.1.1-ci maddəsində isə qeyd olunub ki, qanunla müəyyən edilmiş vergiləri ödəmək vergi ödəyicisinin vəzifəsidir. Məcəllənin 77-ci maddəsinin müddəalarına görə, vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir və vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir.

Vergilər Nazirliyinin apardığı təhlillər göstərir ki, borclu vergi ödəyicilərinin çoxu müxtəlif səbəblərdən yaranmış vergi borclarını mümkün qədər qısa müddət ərzində ödəməyə çalışır və əsasən, buna nail olur. Lakin vergi borclarını ödəmək üçün real imkanları olan bəzi vergi ödəyiciləri qanunvericiliyin tələblərini pozur, hesablanmış vergiləri nəzərdə tutulmuş müddətlərdə dövlət büdcəsinə ödəmirlər.

Bununla əlaqədar olaraq, ayrı-ayrı vergi orqanları üzrə borcları 2 aydan artıq müddətdə ödəməyən, lakin buna real imkanı olan vergi ödəyicilərinin siyahısının mütəmadi qaydada «Vergilər» qəzetində dərc edilməsi, habelə həmin siyahıların vergi orqanları və vergi ödəyicilərinə xidmət mərkəzlərində yerləşdirilməsi nəzərdə tutulub. Qəzetimizin bu sayında 5 saylı Ərazi Vergilər İdarəsində qeydiyyatdan keçən və vergi borclarını ödəmək iqtidarında olan borclu vergi ödəyicilərinin siyahısı dərc olunur.

Adının «Qara siyahı»ya düşməsini istəməyən vergi ödəyiciləri vergi borclarının qısa müddət ərzində dövlət büdcəsinə ödənilməsini təmin etməlidirlər.

| № | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | 01.07.2014 tarixə borc (manatla) |
|---|---|---|---|
| 1 | ƏLİYEV TELMAN SABİR OĞLU | Şirvan rayonu | 27 794,2 |
| 2 | "BİLLUR-KLİNİKA" MMC | Şirvan rayonu | 5 499,2 |
| 3 | MİRİ PAK SƏNAYE VƏ TİCARƏT KOMPANİYASI | Saatlı rayonu | 4 295,1 |
| 4 | BƏŞİROV YAŞAR HƏŞİM OĞLU | Neftçala rayonu | 2 201,9 |
| 5 | HƏSƏNOVA GÜLBİKƏ ABDULRƏHMAN QIZI | Şirvan rayonu | 2 046,1 |
| 6 | FƏRƏCOV GÜLBABA HEYBƏT OĞLU | Sabirabad rayonu | 2 011,9 |
| 7 | ƏLİYEV HABİL ORUC OĞLU | Sabirabad rayonu | 1 809,1 |
| 8 | SÜLEYMANOVA TEHRANƏ ƏHMƏDAĞA QIZI | Salyan rayonu | 1 740,9 |
| 9 | ƏLİYEV ZÜLFÜQAR HÜSNALI OĞLU | Hacıqabul rayonu | 1 415,6 |
| 10 | SƏMƏDOV RAMİL MEHMAN OĞLU | Salyan rayonu | 1 400,0 |

beynəlxalq panoram

# Ukraynada sürücülərdən yeni vergi tutulur



*Nazirlər Kabinetinin qərarına əsasən, çəkisi 1,6 min kq-dan çox olan kempinq qoşqularana - təkərli evlərə görə əlavə pul - gömrükhaqqı ödənilməli olacaq. Bundan sonra Ukraynaya rüsumsuz gətirilməsi mümkün olan kempinq üçün qoşquların maksimal kütləsi 3,5 min kq-dan 1,6 min kq-dək azaldılmışdır.*

Ukrayna ərazisinə «gömrük rəsmiləşdirilməsi» olmadan idxal ediləbiləcək əşyaların siyahısında «Kempinqlərdə müvəqqəti yaşamaq üçün və ya avtoturistlər üçün kütləsi 3,5 min kq-dan çox olan qoşqulu evcik tipli qoşqular və yarıqoşqular (kod 8716 10 99 00)» bəndi «Kempinqlərdə müvəqqəti yaşamaq üçün və ya avtoturistlər üçün kütləsi 1,6 min kq-dan çox olan qoşqulu evcik tipli qoşqular və yarıqoşqular (kod 8716 10 98 00)» bəndi ilə əvəz olunmuşdur.

Hazırda çəkisi 1,6 min kq-dan artıq olan qoşqular üçün gömrük dərəcəsi ümumi qaydalar üzrə hesablanacaq və gömrük dəyərinin 10%-ni təşkil edəcək.

# Fransada büdcə xərcləri ixtisar olunacaq və vergi azaldılacaq

*Yayılan məlumatlara əsasən, hökumət büdcə xərclərinin azaldılması və vergilərin ixtisarına yönəlmiş qətiyyətli addımlar atmağa hazırdır.*

Ölkə hakimiyyəti tərəfindən büdcə vəsaitinin 4 milyard avro azaldılmasını nəzərdə tutan proqram təqdim olunmuşdur. Bununla da ümumi həcmi 14 milyard avro olan xərclərin azaldılması proqramının genişləndirilməsi barədə təklif irəli sürülmüş və bəyənilmişdir. Həmin təklifə görə, bu il ölkənin büdcə kəsirini ÜDM-in 3,8%-nə qədər azaltmaq mümkün ola bilər.

Hökumət gələn il büdcə kəsirinin ÜDM-in 3%-dək azaldılması üzrə təklifi razılıqla qarşılamışdır ki, bu da Maastrix müqaviləsinə əsasən maksimum həddə çatmağa imkan verəcəkdir.

Bundan əlavə, Olland administrasiyasının üzvləri üçillik müddət ərzində biznes üçün ümumi verginin məbləğini ümumilikdə 40 milyard avrodan çox azaltmaq və dövlət büdcəsinin xərclərini 30 milyard avro ixtisar etmək niyyətində olduqlarını bildiriblər.

Xatırladaq ki, ötən üç il ərzində Fransada vergi yığımları 70 milyard avro artmışdır. Ölkədə ÜDM-in 46%-dən çoxu vergi ödənişləri hesabına əmələ gəlir.



Xarici ölkələrin təcrübəsi:

# Çex Respublikasının vergi sistemi: amortizasiya məbləğləri və stimullaşdırıcı güzəştlər

Vergitutma məqsədləri üçün amortizasiya edilən maddi aktivlər, torpaq istisna olmaqla, daşınmaz əmlak və alış dəyəri 40000 kronadan (1 krona=0,039 manat) artıq olan və gözlənilən faydalı istifadə müddəti 1 ildən artıq olan daşınan əmlakdan ibarətdir. Alış dəyəri 60000 kronadan artıq olan və gözlənilən faydalı istifadə müddəti 1 ildən artıq olan qeyri-maddi aktivlər şəxsi məqsədlər üçün, şəxsin özü tərəfindən istehsal olunmadığı halda, amortizasiya edilir.

Torpaq, sənət əsərləri, mədəniyyət abidələri və təbii ehtiyatlar amortizasiya edilmir. Vergi ödəyicisi amortizasiyanın düz xətt və ya sürətli metodunu seçə bilər. Seçilmiş metod bütün amortizasiya dövrü ərzində davamlı istifadə edilməlidir. Hər iki metod üçün aktivlər ehtimal edilən faydalı istifadə müddətinə əsasən cədvəldə göstərilmiş 6 kateqoriyaya bölünür:

| Kateqoriya | Təsvir (Nümunələr) | Faydalı istifadə müddəti |
|---|---|---|
| 1 | Kompüterlər, ofis ləvazimatları, bitkilərin yetişdirilməsi üçün avadanlıqlar | 3% |
| 2 | Avtomobillər, yük maşınları, təyyarə, optik və elektrik avadanlıqları | 5% |
| 3 | Müəyyən sənaye proseslərində istifadə edilən patentlər, maşın və avadanlıqlar | 10% |
| 4 | Boru kəmərləri, enerji ilə təmin edən maşın və avadanlıqlar, taxtadan düzəldilmiş tikililər | 20% |
| 5 | Digər bina və tikililər, körpülər, tunellər, yollar | 30% |
| 6 | Ofis binaları, otel binaları, ticarət mərkəzləri | 50% |

*Cədvəldə göstərilən kateqoriyaların heç birinə uyğun gəlməyən aktivlər 2-ci kateqoriyaya aid edilir.*

Düz xətt metodu ilə aktivlər kateqoriyalarından asılı olaraq illik maksimum dərəcə ilə amortizasiya edilir.

***Zərərin keçirilməsi:*** Zərər 5 vergi ili müddətinə növbəti dövrə keçirilə bilər, lakin zərərin əvvəlki dövrlərə keçirilməsinə yol verilmir. Kapital zərərləri, adətən, çıxılmır. Buna baxmayaraq, qiymətli kağızların (nəzarət paketi və ya əhəmiyyətli təsirə malik səhmlərdən başqa) satışından zərər vergitutma bazasından çıxıla bilər.

Ödəmə mənbəyində 15% dərəcə ilə yekun vergi aşağıdakılara tətbiq edilir:

• azadolma tətbiq edilmirsə, dividendlər və digər bölüşdürmələr;

• passiv partnyorun (müəssisədə payı olan, lakin idarətmədə iştirak etməyən şəxs) mənfəət payları.

***Stimullaşdırıcı güzəştlər:***

Genişmiqyaslı investisiyaların təşviqi:

1) Yeni yaranan müəssisələrə 10 il müddətinə vergi öhdəliyi məbləğinə bərabər vergi güzəşti;

2) Fəaliyyətdə olan müəssisələrə 10 il müddətinə, əvvəlki 2 ilin vergi öhdəliklərindən daha yüksək olanı ilə müqayisədə vergi öhdəliyinin artımı məbləğinə bərabər vergi güzəşti.

İstehsal sənayesi, texnoloji mərkəzlər və strateji xidmət mərkəzlərinə investisiyalara münasibətdə investisiya stimulları tələb edilə bilər. Belə stimullaşdırma tədbirləri üçün əsas şərtlər aşağıdakılardır:

• istehsal sənayesində bu güzəştləri əldə etmək üçün ən azı 100 milyon krona investisiya edilməlidir ki, bunun da ən azı yarısı maşın və avadanlığa cəlb edilməli, ən azı yarısı isə investorun kapitalından olmalıdır.

• texnoloji mərkəzlərdə bu güzəştlərdən faydalana bilmək üçün ən azı 40 yeni iş yeri yaradılmalı, ən azı 10 milyon krona sərmayə yatırılmalıdır ki, bunun ən azı 5 milyonu maşın və avadanlığa yatırılmalı, 5 milyonu isə investorun kapitalından maliyyələşməlidir;

• strateji xidmət mərkəzlərinə münasibətdə bu güzəştlərdən istifadə edə bilmək üçün ən azı 40 (proqram təminatının işlənməsi mərkəzlərində) və ən azı 100 yeni iş yeri (kollektiv xidmət mərkəzlərində) yaradılmalıdır;

• istehsal sənayesi və ya texnoloji mərkəzlərdə (müəyyən tələblərə cavab verdiyi fərdi qaydada dövlət tərəfindən təsdiq edilməlidir) strateji investisiyaların təşviqi maddi və qeyri-maddi aktivlərin əldə edilməsi üçün qrantlara tətbiq ediləcək;

• investisiya ekoloji tələblərə cavab verməlidir və investisiya hədləri işsizlik səviyyəsinin yüksək olduğu regionlarda azaldıla bilər.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:**

1.Tirren dənizində yerləşən kiçik ada; 2.Futbol üzrə dünya çempionatı keçirilən ilk dövlət; 3.Baletdə rəqqasələrin ayaq geyimi; 4.Ukraynada yaşayış məntəqəsi; 5.Elektrik cərəyanının ölçü vahidi; 6.İnsanın əhvaldan və ehtirasdan fərqli olaraq güclü, coşqun və nisbətən qısamüddətli olan emosional həyəcanı, qəzəbi; 9.Malay arxipelaqında ada; 13.Dünyanın ən məşhur muzeylərindən biri; 15.İngiltərə Premyer Liqasında iştirak edən futbol klubu; 16.Tank əleyhinə müdafiə xəndəyi; 17.Hərbi yük qatarı; 18.Asiyada çay; 20.Ərəbistan yarımadasının cənubunda yerləşən dövlət; 21.Bir şeydən istifadə etmək üçün icazə verilən norma, miqdar, son hədd.

**Soldan sağa:**

1.Hakimiyyəti bir nəfər, bir qurum və ya bir qrup adamla zor gücünə, qanunsuz ələ keçirən şəxs; 5.Avtomobil markası; 7.19-cu əsrdə yaşamış italyan bəstəkarı C.Verdinin operası; 8.Olmayan şeylə lovğalanma, gözə kül üfürmə; 10.Metaldan və ya plastik materialdan düzbucaqlı qab; 11.Rusiyanın tanınmış şahmatçısı; 12.Efiopiyada stratovulkan; 14.Mövsümi meyvə; 19.«Romeo mənim qonşumdur» filmində (1963) Səməd rolunu ifa edən aktyorun adı; 21.Cənubi Hollandiyada şəhər; 22.Cümlələri, habelə cümlə üzvlərini birləşdirərək qarşılıq bildirən bağlayıcı; 23.Qızılqazlar fəsiləsinə aid quş cinsi; 24.Yunan mifologiyasında meşə tanrısı. Hermesin oğlu; 25.Quşların embriologiyası, morfologiyası, fiziologiyası, ekologiyası, sistematikası və coğrafi yayılmasını öyrənən şəxs.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Badara; 2.Leksika; 3.Torba; 4.Manevr; 5.Marka; 6.Qlazqo; 9.Oxra; 13.Ayla; 15.Qobelen; 16.Sfinks; 17.İzomer; 18.Dakota; 20.Tonus; 21.Karib.

**Soldan sağa:** 1.Baletoman; 5.MiQ; 7.Doktrina; 8.Arfa; 10.Raisa *(Nedaşkovskaya)*; 11.Vaxtanq *(Kikabidze)*; 12.Saray; 14.Sayqa; 19.Fotoliz; 21.Kübra *(Əliyeva)*; 22.Nənə; 23.Amarillo; 24.Səs; 25.Sarabanda.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

## idman

# Velosiped idmanının şose növü üzrə Azərbaycan çempionatı başa çatıb



*Velosiped idmanının şose növü üzrə Azərbaycan çempionatına yekun vurulmuşdur. Ölkəmizin ən güclü velosipedçilərini müəyyənləşdirən yarışın sonuncu gününün finişi Daşkəsəndə təşkil olunmuşdur.*

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən ölkə çempionatında federasiyanın nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin 100-ə yaxın idmançısı mübarizə aparmışdır. Bundan başqa, Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası «Synergy Baku»nun 4 üzvünün - müvafiq olaraq elit və U-23 milli komandalarımızın da şərəfini qoruyan Elçin Əsədov, Aqşin İsmayılov, Tural İsgəndərov və Samir Cəbrayılovun da yarışda iştirak etmələri çempionata olan marağı xeyli artırmışdır.

Yarışın proqramına əsasən, sonuncu gün elit, U-23 və gənclər arasında 120 kilometr məsafəyə qrup ötüşməsi üzrə ən güclülər müəyyənləşmişdir. Yürüşə Gəncə şəhərində, dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi önündən start verən velosipedçilər Göygöl rayonundan keçməklə Daşkəsənə doğru istiqamətlənmişlər.

Startdan dərhal sonra əsas mübarizə pelotondan xeyli aralanan «Synergy Baku» komandasının üzvləri Elçin Əsədov, Tural İsgəndərov və Samir Cəbrayılov arasında getmişdir. İlk 20 kilometrdən sonra Tural İsgəndərov əsas rəqibləri ilə təxminən 2 dəqiqəlik fərq yaratsa da, sonradan Elçin Əsədov onu qabaqlamışdır. E.Əsədov finiş xəttini hamıdan əvvəl - 3 saat 27 dəqiqə 35 saniyəyə keçmişdir. Tural İsgəndərov çempiona 30 saniyə uduzmaqla gümüş medalla kifayətlənmişdir. Samir Cəbrayılov isə bürünc medala sahib olmuşdur.

Gənclər arasında 8 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin təmsilçiləri Kənan Qəhrəmanlı, Nicat Qarayev və Elmar İlyasov ilk 3 pilləni bölüşmüşlər.

Qeyd edək ki, Azərbaycan çempionatının nəticələri Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) reytinq siyahısında nəzərə alınacaqdır.

# Güləşçilərimiz Almaniyada maksimum nəticə göstəriblər

*Almaniyanın Dortmund şəhərində güləş üzrə Beynəlxalq «Qran-pri» turniri keçirilmişdir. Yarışda sərbəst güləş üzrə böyüklərdən ibarət Azərbaycan yığması da iştirak etmişdir. Turnirə 4 güləşçi ilə qatılan milli komandamızın bütün üzvləri qızıl medal qazanmışlar.*



65 kiloqram çəki dərəcəsində mübarizə aparan Hacı Əliyev macarıstanlı İstvan Nemeth, rumıniyalı Georg Bucur və serbiyalı İbro Cakovic üzərində qələbədən sonra finalda ötən ilin dünya çempionu, ermənistanlı David Safaryanı da döşək üzərinə çıxdığına peşman etmiş və fəxri kürsünün ən yüksək pilləsinə çıxmışdır.

Finala qədər irəliləyən digər güləşçimiz Cəbrayıl Həsənov da (74 kq) həlledici görüşdə yerli güləşçi Georg Harta heç bir şans verməyərək turnirin baş mükafatına sahib olmuşdur. Həmzət Osmanov (86 kq) isə finalda Polşa təmsilçisi Zbiqnev Baranovski üzərində inamlı qələbə qazanmışdır.

70 kiloqram çəki dərəcəsində mübarizə aparan daha bir güləşçimiz Ruslan Dibirhacıyev də həlledici görüşdə Rumıniya təmsilçisi Adrian Moiseyə qalib gəlmiş və turnirin qızıl medalını qazanmışdır.

Qeyd edək ki, görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Vüqar Şükürov təmsil etmişdir.

# Birinci Avropa Oyunlarının loqosu yenilənib

Gələn il Azərbaycanda keçiriləcək Birinci Avropa Oyunlarının loqosunda dəyişiklik edilmişdir. AzərTAc-ın yaydığı xəbərə görə, bu dəyişikliklər loqonun daha fərqli, rəngarəng və kiçik ölçülərdə daha yaxşı görünüşlü olmasını təmin etmək məqsədini daşıyır.

Baku 2015
1st EUROPEAN GAMES

## mozaika

# «YouTube» ödənişli xidmət göstərəcək

texnologiya

*«Google» veb-korporasiyasına mənsub olan «YouTube» videohostinqi tezliklə ödənişli sxem üzrə işləyəcək musiqi xidmətini sınaqdan çıxarmağa başlayacaqdır.*

«YouTube» videohostinqinin ödənişli musiqi xidməti yaratmağı planlaşdırdığı 2013-cü ilin payızında məlum olmuşdu. O zaman xəbər verilmişdi ki, kompozisiyaları fərdi kompüterlərdə və mobil qurğularda (smartfonlarda və planşetlərdə) dinləmək mümkün olacaqdır, abunə haqqı isə ayda təqribən 10 ABŞ dolları olacaqdır. Özü də istifadəçilər hər hansı reklamdan tamamilə xilas olacaqlar.

İndi «YouTube» videohostinqinin nümayəndələri bildirmişlər ki, yeni xidmət yayın sonunda işə salınacaqdır. Məlumdur ki, xidmət oflayn səsləndirmə üçün trekləri saxlamağa imkan verəcəkdir. İstifadəçilər həm ayrı-ayrı kompozisiyaları, həm də albomları dinləyə biləcəklər. «YouTube» videohostinqinin tərəfdaşları «yüzlərlə müstəqil naşir və aparıcı leyblləridir».

Bir sıra şəbəkə mənbələrinin məlumatına görə, «YouTube» bir sıra studiyaların materiallarını öz ödənişsiz videohostinqində qadağan edə bilər. Bu, guya ödənişli musiqi xidmətinin işə salınması ilə əlaqədar yeni saziş bağlamaqdan imtina edən müstəqil səsyazma markalarına aiddir. Qeyd edildiyi kimi, «YouTube» videohostinqinin indiyədək əməkdaşlıq etdiyi studiyaların 95%-i ilə razılaşma əldə olunmuşdur.

# Hibrid avtomobillərə hazırlıq görülür

Azərbaycan Dövlət Neft Şirkətinin törəmə strukturu olan «SOCAR Petroleum» Bakıdakı bir sıra yanacaqdoldurma məntəqələrində elektromobillər üçün ultra sürətli enerjiyükləmə avadanlıqları quraşdırır. Şirkətdən verilən məlumata görə, elektriklə işləyən və ya elektriklə yükləmək üçün girişi olan hibrid avtomobillərin sahibləri öz avtomobillərini aeroport yolu üzərində Sabunçu və Suraxanı yol qovşaqlarının yaxınlığında yerləşən yanacaqdoldurma məntəqələrində 15-20 dəqiqə ərzində cərəyanla təmin edə biləcəklər. Quraşdırılması nəzərdə tutulan avadanlıqlar CHAdeMO, COMBO 2, AC TYPE mode2 standartlarını dəstəkləyir. Sürətli enerjiyükləmə avadanlıqları eyni anda iki avtomobilə xidmət edə biləcək ikili texnologiya ilə təmin olunub. Enerjinin yüklənməsi müddətdə müştəri müxtəlif parametrlər haqqında ətraflı məlumat ala biləcək. Gözlənilir ki, ultra sürətli enerjiyükləmə avadanlıqlarının quraşdırılması nəticəsində ölkədə bu tip nəqliyyat vasitələrinin istifadəsinə marağın artmasına səbəb olacaq.




# İnsanlar daha gec qocala bilərmiş...

araşdırma

*Böyük Britaniyanın Edinburq Universitetində alimlərin apardıqları tədqiqatlar nəticəsində insan orqanizminin əsas qocalma səbəbi ilə bağlı maraqlı bir mülahizə yürüdülüb. Tədqiqatın rəhbəri Endrü Stivenson iddia edir ki, təqvim və saat olmasa idi, insan ömrü indikindən qat-qat uzun olardı: «İnsanlar gün ərzində işlərini saata görə proqramlaşdırırlar. Hər yerdə təqvimlər var və insan hər günün necə qurtardığını, növbəti günün necə başladığını bilir».*

Sadalananların insan psixologiyasına güclü təsir etdiyini və insan həyatını proqramlaşdırdığını deyən Stivenson təqvimdə hər rəqəm dəyişdikcə insanın təhtəlşüurunda ömründən daha bir gün getdiyi təəssüratının yarandığını qeyd edib. Bu isə təsirsiz qalmır, orqanizm «itkiləri» hesablaya-hesablaya qocalır.

Endrü Stivenson fikrini əsaslandırmaq üçün1982-ci ildə Kaliforniya Universitetində aparılan tədqiqatı xatırladıb: «Həmin vaxt könüllü bir tələbə üzərində maraqlı tədqiqat aparılmışdı. Bir il müddətində qapalı şəraitdə saxlanılan tələbənin otağı süni işıqlandırılırdı.

Otaqdakı saat isə ləng işləyirdi. Nəticədə, 1 il sonra tələbə sadəcə 8 ay müddət keçdiyini güman edirdi. Onun orqanizmində aparılan tədqiqatlarda isə bu müddət ərzində tələbənin orqanizminin 1 il yox, 8 ay qocaldığı müəyyən olunmuşdu».

E.Stivenson arxeoloji qazıntılar zamanı yaşı 100-ü ötmüş çoxlu insan skeletinin tapıldığını deyərək qeyd edib ki, «ibtidai icma quruluşunda insanlar həyatlarını vaxta görə proqramlaşdıra bilmirdilər. Bu da onların daha gec qocalmasına və gec ölməsinə səbəb olurdu».

Bu da maraqlıdır ki, Kembric Universitetinin alimi Malkolm Mak Qedi də sivilizasiyadan uzaq, tayfa quruluşunda yaşayan insanların daha çox yaşadığını və buna əsas səbəbin onların «qollarına saat taxmaması» olduğunu iddia edir.

# Asbest şiferlərdən ehtiyatlı olun

xəbərdarlıq

Uzun illərdir ki, Azərbaycanda dam örtüyü kimi istifadə olunan asbest şiferlər inkişaf etmiş ölkələrdə çoxdan qadağan olunub. Artıq bu məsələ respublikamızda da gündəliyə gətirilib.

Respublika Gigiyena və Epidemologiya Mərkəzinin Əmək Gigiyenası və Ətraf Mühitin Mühafizəsi şöbəsinin rəhbəri Teymur Teymurov «milli.az» saytına müsahibəsində deyib: «Asbest ağciyər xərcəngi, asbestos, plevranın qalınlaşması və bir sıra xəstəliklər əmələ gətirir. Ümumiyyətlə, asbestin bütün növləri xərçəng xəstəliklərinin yaranmasına səbəb ola bilər. Asbest lifləri havaya buraxılan zaman təhlükəli olur. Liflərin ayrılması asbestlə işləmə, onun istehsalı və yaxud quraşdırılması zamanı baş verir. Havaya ayrılan liflər ətraf mühit və insan sağlamlığı üçün birmənalı olaraq ziyanlıdır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) prosesin öyrənilməsi ilə bağlı bütün Avropa, eləcə də dünya üzrə səhiyyə nazirlikləri və ətraf mühit üzrə nazirliklərlə müzakirələr aparır». T.Teymurovun sözlərinə görə, hazırda Azərbaycanda asbestin təsirləri ilə bağlı araşdırmalar başlama ərəfəsindədir. Proses Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə aparılacaq.

Ekoloq Müslüm Qurbanov deyib ki, Rotterdam Konvensiyasına görə, bir neçə növ ziyanlı asbest tərkibli materialların işlədilməsi qadağan olunub: «Zərərli asbest materialların kodu var. Qərar vermək üçün əvvəlcə köhnədən istifadə olunan asbest materialların kodu konvensiyada göstərilən kodlarla müqayisə olunmalıdır. Bunun üçün isə təhlillər aparılmalıdır. Asbest tərkibli materialların bir qismi istilik izolyasiyaedici maddələr üçün, bir qismi dam örtüklərinin hazırlanmasında istifadə olunur. Asbest tərkibli materiallardan istilik ötürücü kimi istilik elektrik stansiyalarında - borularda istilik izoləedici material kimi istifadə edirlər. Hazırda energetika sektorunda və eləcə də məişət sektorunda asbest materiallardan geniş istifadə olunur».



Qeyd edək ki, Azərbaycan hələ Rotterdam Konvensiyasına qoşulmasa da asbestin təhlükəsini gündəmdə tutan digər konvensiyalar da var. Ekoloqun fikrinə görə, sovet dövründə dam örtükləri, eləcə də digər sahələrdə istifadə olunan asbest materiallar xüsusi qaydalar əsasında sökülməli və təhlükəli tullantı kimi məişət tullantıları poliqonunda yox, təhlükəli tullantılar poliqonunda basdırılmalıdır.

Asbest yalnız iş prosesində deyil, dam örtüyü kimi də ziyan verir: dam örtüklərindən külək erroziyası nəticəsində toz şəklində zərərli hissəciklər ayrılır və nəfəs yolu ilə insan orqanizminə keçir. Ayrılan hissəciklər kanserogen maddələr olduğu üçün insanda xərçəng xəstəliyi əmələ gətirmək potensialı böyükdür.

**Müdriklər deyib ki...**



***«Bəzi kitablar haqsız unudulur, ancaq haqsız yadda qalan kitab olmur...»***

*Ernest Hemenquey (1899-1961)*